**Azərbaycan insanı yerli və beynəlxalq ehtiyaclara dəstək olur**

Ölkəmizin ən böyük humanitar təşkilatı olan Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC və ya Milli Cəmiyyət) növbəti 2014-cü il üçün tərtib olunmuş "İLLİK HESABATI"nı sizinlə bölüşürəm. Bəli, dünyada həddən artıq böyük coğrafi ərazidə insan iztirabları, humanitar böhranlar, siyasi və hərbi çəkişmələrlə, terror aktları, təbii və texnogen fəlakətlərlə yadda qalan 2014-cü il üzrə humanitar sahədə həyata keçirilmiş fəaliyyətlərə dair hesabatı tərtib etmək əslində elə də asan iş deyil. Hesabat ilində AzQAC-ın da təmsil olunduğu dünyanın ən böyük humanitar təşkilatı olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı (Beynəlxalq Hərəkat) tərəfindən kifayət qədər böyük miqyaslı humanitar yardım əməliyyatları həyata keçirilmişdir. Məncə, humanitar böhranların çoxalması və formasının yeni istiqamətlərdə şaxələnməsi fonunda AzQAC da daxil olmaqla, Beynəlxalq Hərəkat humanitar sahədə əzmkarlığını və fəaliyyətini daha da artırmışdır.

Əvvəlki illərə nisbətən 2014-cü ildə AzQAC özünün humanitar fəaliyyət istiqamətinin daha çox şaxələnməsi, humanitar dəstək verdiyi kövrək qrupların coğrafi miqyasının genişlənməsi fonunda özünün inkişaf və Beynəlxalq təmsilçiliyi istiqamətlərində öz dinamikliyini qoruyub saxlamağa müvəffəq olmuşdur. Hər zaman olduğu kimi bu dinamiklik və inkişaf ölkə rəhbərliyinin və şəxsən ölkə başçısı, AzQAC-ın Fəxri üzvü, Zati-aliləri cənab İlham Əliyevin sayəsində mümkün olmuşdur. Belə ki, yerli və beynəlxalq səviyyədə cəmiyyətimizin aparıcı humanitar təşkilatlarla rəqabət apara bilməsi üçün münbit şəraitin yaradılmasında, xüsusilə, müxtəlif sərəncamların imzalanması, təşkilat haqqında Qanunun qəbul olunması, müvafiq qərarların verilməsi və s. istiqamətlərdə ölkə başçısının çox böyük rolu olmuşdur.

2014-cü il üzrə "İLLİK HESABAT"da ətraflı olaraq həyata keçirilən humanitar fəaliyyətlərimizlə tanış olacaqsınız. Amma, əsas yadda qalan bir neçə humanitar tədbirlər haqqında söhbət açmaq istəyirəm. 2014-cü il mayın 13-də qardaş Türkiyə Cümhuriyyətinin Manisa vilayətinin Soma kəndində kömür mədənində qəza baş vermişdir. Faciədə 300-dən çox fəhlə həlak olmuş, 100-dək insan yaralanmışdı. AzQAC ölənlərin ailələrinə mənəvi və maddi dəstək olmaq niyyəti ilə təcili fondların toplanması aksiyası elan edilmişdi. Ölkənin bütün təbəqələrini əhatə edən insanların qoşulduğu bu aksiyada tez bir müddətdə müvafiq simvolik maliyyə vəsaiti toplanılaraq tərəfdaşımız olan Türk Kızıl Ayı vasitəsilə həmin həlak olanların ailələrinə çatdırılmışdır. 2013-cü ildən başlayaraq, Ukraynada baş verən siyasi və hərbi çəkişmələrdə yaranmış humanitar böhran da AzQAC-ın diqqətindən kənarda qalmamışdır. Bu böhranla əlaqədar, Beynəlxlaq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq Federasiya) Ukrayna xalqına yardımı nəzərdə tutan ümumdünya müraciətinə də AzQAC özünün maliyyə imkanları çərçivəsində dəstək vermişdir. Ən maraqlısı da budur ki, həmin maliyyə dəstəyi AzQAC-ın Bakı şəhərində iaşə obyektlərində quraşdırılmış ianə qutularından əldə olunmuş maddi vəsait hesabına edilmişdir. Beləcə, Azərbaycan insanının humanizmə verdiyi ianəsi AzQAC vasitəsilə nəinki yerli səviyyədə, həmçinin beynəlxalq səviyyədə mövcud olan kövrək qruplara yönəldilmişdir.

AzQAC-ın beynəlxalq uğurları da az olmamışdır. Belə ki, Beynəlxlaq Federasiyanın Konstitusiyasına dəyişikliklərin olunması üzrə İşçi Qrupda Avropa Zonasını müşahidəçi qismində təmsil etmək üçün şəxsən mənim namizədliyim dəstəklənmişdir. Mən də bu sahədə öz üzərimə düşən öhdəliyi ölkəmizi layiqincə təmsil edərək yerinə yetirirəm. Dünyanın ən böyük humanitar təşkilatı olan Beynəlxalq Federasiyanın rəhbərliyinin Avropa Zonasının təmsilçiliyi tərəfindən namizədliyimin dəstəklənməsində sözsüz ki, yerli səviyyədə AzQAC-ın inkişafına verdiyimiz töhfələr durur. Bundan əlavə, AzQAC-ın İcraçı Katibinin Beynəlxalq Hərəkatın gələcək fəaliyyətlərini daha da geniş surətdə təşkil edəcək 2 mühüm mövzu üzrə formalaşdırılan İşçi Qrupların hər ikisində təmsil olunması, eləcə də İcraçı Katibin müavininin də Beynəlxalq Federasiyanın Seçki Komissiyasında təmsil olunması Milli Cəmiyyətimizin kadr potensialının güclənməsindən xəbər verir.

Təşkilati inkişaf baxımından yadda qalan əlamətdar tarixlərdən biri də ilin sonunda dekabr ayının 4-də baş tutmuşdur. AzQAC və Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Uzun illərdən bəri AzQAC özünün humanitar missiyasına insanları daha çox cəlb etmək üçün məhz təhsil

ocaqlarında təbliğat işlərini aparmışdır. Bu Anlaşma Memorandumu həmin humanizmə səslənmə mexanizmlərini daha konkret şəkildə özündə əks etdirməklə, gənclərin bu Hərəkata qoşulmasında fəallığını daha da artıracaqdır.

2014-cü il ərzində AzQAC özünün 2011-2015-ci illəri hədəfləyən Strateji Planından irəli gələn fəaliyyətlərin böyük qismini arxada qoya bilmişdir. Bu sahələrdən Təşkilati İnkişaf, Sağlamlıq və Qayğı, Gənclər və Könüllülər, xüsusilə də Fondların Artırılması və Gəlirgətirməni qeyd etmək olar.

Hesabat ilində digər illərdə olduğu kimi şəffaflıq, düzgün hesabat və daha çox yardım etmək üçün əzmkarlıqla çalışmışıq.

Milli Cəmiyyətimiz adından 2014-cü ildə bizimlə birgə humanitar missiya üzrə fəaliyyət göstərən və bu sahədə dəstəyi olan hər bir kəsə, hökumət və qeyri-hökumət təşkilatlarına, biznes strukturlarına, beynəlxalq təşkilatlara, üzvlərimizə, gənclərimizə və xüsusi olaraq qürur mənbəyimiz olan könüllülərimizə öz təşəkkürümü bildirirəm.

**Dr. Novruz Aslanov**
**Azərbaycan Qızıl Aypara**
**Cəmiyyətinin prezidenti,**
**Milli Məclisin deputatı**

## Fövqəladə Hallara Hazırlıq və Cavabvermə (FHHC)

**Məqsəd:**

2011-2015-ci illər üçün AzQAC-nin Strateji Planına uyğun olaraq, insan həyatını xilas etmək naminə, Milli Cəmiyyətin imkanlarını səfərbər etməklə, fəlakət və böhranlara daha hazırlıqlı olmaq və bununla da fəlakətlərdən sonra həm ölkə daxilində, həm də xarici ölkələrdə reabilitasiyaya nail olmaqdır.

**Ümumi fəaliyyətlər:**

Hər il olduğu kimi 2014-cü ildə də müxtəlif fəlakətlərdən (zəlzələ, yanğın, sel-suların daşması və s.) zərər çəkən insanlara humanitar və psixoloji yardımın göstərilməsi davam etdirilmişdir.

1. FHHC 2014-cü ildə Kəlbəcər, İmişli, Ağsu, Xaçmaz, Goranboy, İsmayıllı və Masallı rayonlarından ümumilikdə 65 nəfərdən ibarət zərərçəkmişə (13 ailəyə) 7,125.70 manat məbləğində humanitar yardım göstərmişdir;
2. Avqust ayının 7-də AzQAC-nin Prezidenti, Millət Vəkili Dr. Novruz Aslanovun iştirakı ilə Qazax rayonunda qurumun 11 sərhədyanı rayon bölməsinin sədrləri ilə geniş müşavirə keçirilmişdir. Müşavirədə rayon bölmələrinin işinə daha çox könüllülərin cəlb olunması, qarşılıqlı əlaqələrin operativliyi üçün kommunikasiya vasitələrindən istifadənin gücləndirilməsi, fövqəladə hallara hazırlıq məqsədilə ilk yardım üzrə insanların maarifləndirilməsi, tibbi-sosial qayğı sahəsində işlərin aparılmasına daha çox önəm verilməsi tapşırığı verilmişdir;
3. Yuxarıda qeyd olunan müşavirədən sonra baş verə biləcək fövqəladə hallara hazırlıq işlərinin həyata keçirilməsi məqsədilə AzQAC-nin Prezidenti müvafiq əmr imzalamışdır. Bu əmrə əsasən, 11 sərhədyanı rayon bölməsinin hər birinə 2 ədəd çadır verilmişdir. Çadırlar gərgin müharibə şəraitində mobil tibb məntəqəsi və ya ilk yardım postu rolunu oynayacaq. Bundan əlavə, bütün bu rayon bölmələrinin əməkdaşları və könüllüləri ilk yardım çantaları, Qızıl Aypara fərqləndirici və müdafiəedici emblemləri əks olunan xüsusi jiletlər və önlüklərlə təchiz olunmuşlar;
4. AzQAC-in İcraçı Katibinin tapşırığına əsasən yaradılmış müvafiq İşçi Qrup FHHC şöbəsinin rəhbərliyi ilə AzQAC-nin "Fövqəladə Hallar Zamanı Fəaliyyət Planı"-nın hazırlanması üzrə işləri davam etdirmişdir. 2014-cü ilin birinci yarımilliyinə əsasən Beynəlxalq Federasiya tərəfindən göndərilmiş "Fövqəladə Hallar Zamanı Standart İş Qaydaları" və "Fövqəladə Vəziyyət və Ehtiyacların Qiymətləndirilməsi" təlimat

sənədləri Azərbaycan dilinə tərcümə edilərək müvafiq şöbələr arasında paylanılmış və müzakirə olunmuşdur. Fövqəladə Hallar Zamanı Fəaliyyət Planının hazırlanması işinin davamı olaraq AzQAC-ın yerli bölmələrindən lazımi məlumatlar toplanılmış və təhlil olunmuşdur. Planın tam hazırlanması 2015-ci ilin birinci yarımilliyinin sonunadək nəzərdə tutulmuşdur.

**Təchizat üzrə:**

2014-cü ilin yanvar – dekabr aylarında Kəlbəcər, İmişli, Ağsu, Xaçmaz, Goranboy, İsmayıllı və Masallı rayonlarında zərərçəkmiş sakinlərə yardım göstərmək məqsədilə 70 adyal, 17 palaz, 17 mətbəx dəsti, 24 ərzaq bağlaması, 16 əriştəkəsən, 28 yataq kisəsi, 6 ədəd kanistr, 6 ədəd səyyar qaz plitəsi, 2 ədəd lom, 1 ədəd balta, 5 ədəd dəsmal, 9 ədəd bel (böyük), 31 yataq dəsti, 7 gigiyenik dəst və 3 ədəd çadır humanitar yardım kimi paylanılmışdır. Bundan əlavə, 23 ədəd çadır və 55 ədəd Qızıl Aypara loqolu önlük hallara hazırlıq məqsədilə cəbhəyanı rayon bölmələrinə fövqəladə ilə verilmişdir.

**Tərəfdaşlarla qarşılıqlı əməkdaşlıq üzrə:**

FHHC şöbəsi müxtəlif fəlakətlərdən əziyyət çəkən insanlara yardım göstərilməsi ilə yanaşı, həm də tərəfdaşlarla fəlakət risklərinin azaldılması məqsədilə müxtəlif layihələr, tədbirlər, görüşlərdə fəal iştirak edir.

*Təhlükəsiz və Möhkəm İcmaların Qurulması layihəsi*

- Avstriya İnkişaf Agentliyi və Avstriya Qızıl Xaç Cəmiyyətinin maliyyə və texniki dəstəyi ilə AzQAC 2012-ci ilin dekabr ayından etibarən, “Təhlükəsiz və Möhkəm İcmaların qurulması” layihəsinin yerinə yetirilməsinə başlamışdır. Bu 3 illik layihənin birinci ilində İsmayıllı rayonunun Diyallı və Təzəkənd kəndlərində, ikinci ilində İsmayıllı şəhəri və İsmayıllı rayonunun Kürdmaşı və Tircan kəndlərində, üçüncü ilində isə Qusar şəhəri və Qusar rayonunun Kuzum və Anıx kəndlərində işin aparılması nəzərdə tutulmuşdur;
- 2014-cü ildə layihə çərçivəsində İsmayıllı rayonunun Kürdmaşı və Tircan kəndlərində yaradılmış Kənd İcma Qruplarına “Fəlakət Riskinin Azaldılmasının (FRA) Terminləri və Konsepsiyası” barəsində təlim keçirilmişdir. Daha sonra Kənd İcma Qruplarına “İştirakçılığı təmin etməklə İmkanlığın və İmkansızlığın Qiymətləndirilməsi” (İİQ), onun məqsədi, ondan istifadə qaydaları və onun üstünlüyü barəsində izahlar olunmuşdur. Kənd İcma Qruplarına İİQ-nin tərkib hissəsi olan “Fövqəladə Hadisələrin (FH) Qiymətləndirilməsi Matrisi”, “Həyati Vacib Elementlər”, “İmkanlığın və İmkansızlığın Qiymətləndirilməsi” və “Fəaliyyət Planının Tərtib Olunması” cədvəl və matrislər paylanılmışdır. Hər bir Kənd İcma Qrupları kiçik qruplara bölünərək öz kəndlərindəki real vəziyyətə əsaslanan bu cədvəl və matrisləri doldurmuşlar. Doldurulmuş cədvəl və matrislər təqdim edilmiş, müzakirə olunmuş və orda müfaviq dəyişikliklər edilmişdir;
- “Təhlükəsiz və Möhkəm İcmaların Qurulması” layihəsi çərçivəsində İsmayıllı rayonunun Kürdmaşı və Tircan kəndlərində bir sıra tədbirlər həyata keçirilmişdir. Bunlardan “İlk yardım” təlimləri keçirilən zaman Kənd İcma Qruplarına İlk yardım çantalarının paylanılması, İcmalara (bel, lom, araba, vedrə, iri çəkic, külüng, dəbilqə, mıxçıxaran, yanğınsöndürən, eynək, respirator, əlcək, kəndir və s.) kimi texniki avadanlığın verilməsi, fövqəladə hal zamanı özünü idarə etməsinə dair xüsusi məlumat və təlimat guşələrinin hazırlanması, “Ailə Fövqəladə Hallara Hazırlıq Planı və Ailədə təhlükəsizlik”, “İqlim Dəyişkənliyinə Adaptasiya” mövzularında təlimlər, “İlk yardim, Axtarış və Xilasetmə”yə dair simulyasiya təlimləri təşkil olunmuşdur.

*Hökumət qurumları və Beynəlxalq təşkilatlarla əməkdaşlıq*

- 2014-cü il may ayının 5-də "Şəhər Şəraitində Risklərin Azaldılması" mövzusunda İsmayıllı Rayon İcra Hakimiyyəti ilə birgə AzQAC-nin fəxri üzvü, ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və 8 may "Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Günü"nə həsr olunmuş tədbir keçirilmişdir. İlk olaraq İsmayıllı rayonunun 100 nəfər orta məktəb şagirdi xüsusi geyimdə Beynəlxalq Hərəkata dair əyani vəsaitlərlə rayonun mərkəzi küçəsində yürüş etmişlər. Sonra tədbir İsmayıllı Gənclər Mərkəzində davam etdirilmişdir. Tədbirdə gənc könüllülər Fövqəladə Hallara Hazırlıq, İlk Yardıma aid maarifləndirmə yönümlü səhnəciklər, rəsm əsərlərini və inşa yazılarını təqdim etmişlər;
- 2014-cü il aprelin 18-də AzQAC, BQXK və FHN rəsmiləri arasında görüş keçirilmiş, hazırkı və gələcək birgə əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur;
- 2014-cü ilin noyabr ayında AzQAC-nin FHN ilə əməkdaşlığını tənzimləyən işçi qrupu Nazirliyin rəsmiləri ilə görüşmüş, birgə əməkdaşlığın perspektivlərini müzakirə etmişdir;
- 2014-cü il mart ayının 1-də "Ümumdünya Mülki Müdafiə günü" və sentyabr ayının 16-da "Ümumdünya İlk Yardım günü"nə həsr olunmuş tədbirlər AzQAC-nin Sumqayıt şəhər bölməsi və FHN-nin Sumqayıt Regional Mərkəzi tərəfindən birgə təşkil olunmuşdur;
- 2014-cü il aprelin 30-da AzQAC-ın Baş Qərargahında FHHC şöbəsinin müdiri Fərid Seyidzadə, Təhlükəsiz və Möhkəm İcmaların Qurulması layihəsinin koordinatoru Elşən Səlimzadə və İlk Yardım sektorunun rəhbəri Şahin Biləndərli Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı Nümayəndəliyinin Əməkdaşlıq üzrə nümayəndəsi Rasim Əlləzovla, Avstriya Qızıl Xaç Cəmiyyətinin İlk Yardım üzrə eksperti Qernot Qromer və İlk Yardımın qiymətləndirilməsi üzrə BQXK-nin eksperti Meqan Turkinqton arasında fövqəladə hallar zamanı AzQAC-da İlk yardım mövzusunda görüş keçirilmişdir. Görüşdə mövzu ilə əlaqədar geniş fikir mübadiləsi aparılmışdır. Görüş 2014-cü ildə BQXK-nin dəstəyilə AzQAC-nin İlk Yardım sahəsinin effektivliyinin qiymətləndirilməsi çərçivəsində keçirilmişdir;
- 2014-cü il noyabr ayının 10-dan-12-dək Bərdə şəhərində BQXK-nin Bərdə Yarım-Nümayəndəliyi tərəfindən iqtisadi vəziyyətin yaxşılaşdırılması layihəsi çərçivəsində fəlakətlər zamanı ehtiyacların qiymətləndirilməsi təlimi təşkil olunmuşdur. Təlimin əsas məqsədi qiymətləndirmənin məzmununun izahı, qiymətləndirmə prosesinin qaydaları, texniki alətlərin təqdimatının təşkilindən ibarət olmuşdur. Təlimdə AzQAC FHHC şöbəsi, AzQAC Miqrasiya şöbəsi və AzQAC Regional Mərkəz Koordinatorları, yerli bölmə sədrləri və gənclər üzrə təlimatçılar iştirak etmişlər;
- İl ərzində BQXK ilə əməkdaşlıq çərçivəsində AzQAC-nin cəbhə xəttində fəaliyyət göstərən rayon bölmələrinə İlk Yardım çantaları və xüsusi jiletlər təqdim olunmuşdur.

**Nailiyyət:**

-AzQAC və FHN arasında mövcud olan Əməkdaşlıq Sazişinə dair fəaliyyətlərin tərəfdaşlıq qaydalarına uyğun şəkildə davam etdirilməsi;
-BQXK tərəfindən AzQAC FHHC sahəsinə diqqətin artması.
-AzQAC daxili imkanları hesabına müxtəlif fövqəladə hallara çavabverməyə hazır olmaq məqsədilə mərkəzi anbara zəruri olan 10 ədəd gigiyenik dəst, 5 ədəd səyyar qaz plitəsi və 40 ədəd yataq dəsti təhvil vermişdir.

**Problemlər:**

- Fövqəladə hallara hazırlıq və cavabvermə istiqamətində olan fəaliyyətlər üzrə layihələrin həyata keçirilməsində xarici donorlardan asılılıq;
- Fəaliyyətlər üçün kifayət qədər maliyyə vəsaitinin olmaması;
- Fövqəladə hallara hazırlıq və cavabvermə üzrə milli planın olmaması;
- Telekommunikasiya üzrə mütəxəssisin olmaması;
- AzQAC Fövqəladə Hallar Zamanı Fəaliyyət Planının olmaması;

- Mərkəzi anbarda fövqəladə hallar zamanı yardım təminatı üçün kifayət qədər ehtiyatın olmaması.

## Sağlamlıq və Qayğı

**Məqsəd**

Səhiyyə maarifi və xidmətləri vasitəsilə insanların sağlam və təhlükəsiz həyat sürməsi naminə biliklərin artırılması

*Icmaya Əsaslanan Səhiyyə Maarifi*

**Fəaliyyətlər**
Beynəlxalq Federasiyanın "2020 Strategiyası"na və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə bağlanmış Anlaşma Memorandumuna əsasən, AzQAC Sağlamlıq və Qayğı şöbəsi tərəfindən ölkə daxilində sağlamlıq sahəsində fəaliyyət göstərən dövlət və qeyri-dövlət təşkilatları ilə sıx əməkdaşlıq nəticəsində il ərzində əhalinin maarifləndirilməsi məqsədilə infeksion və qeyri-infeksion (İİV/QİÇS, vərəm, hepatit, ürək-damar, diabet, xərçəng və s.) xəstəliklərlə bağlı ölkədə səhiyyə üzrə aktual mövzulara dair müxtəlif maarifləndirmə və təbliğat tədbirləri təşkil olunmuşdur.

- AzQAC tərəfindən ölkədə ana və uşaq ölümünün sayının azaldılması, qadın sağlamlığı haqqında biliklərin artırılması üçün 2014-cü ildə müvafiq maarifləndirmə işləri aparılmışdır. AzQAC Nizami rayon bölməsində gələcək analar üçün "Hamiləliyin qorunması" mövzusunda seminar təşkil olunmuş və onların müxtəlif suallarını cavablandırmaq üçün aparıcı mütəxəssis həkim-ginekoloq dəvət olunmuşdur. Seminarda "Dəcəl Balam" ailə və uşaq jurnalının nümayəndəsi də iştirak etmişdir;
- Sağlamlıq və Qayğı şöbəsi tərəfindən il ərzində ayrı-ayrı vaxtlarda AzQAC-nin 57 nəfər Baş Qərargah işçisi, Bakı Regional Mərkəzinin əməkdaşı və Regional Mərkəzə daxil olan rayon bölmələrinin sədrləri, işçi heyəti və könüllüləri, Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatının (AGAT) rəhbərlik və işçi heyəti, AzQAC-da istehsalat təcrübəsi keçən Azərbaycan Turizm İnstitutunun Sosial iş fakültəsinin 3-cü kurs tələbələri üçün ***Sağlam Həyat tərzi/Qeyri-İnfeksion Xəstəliklər, Stress, onun əlamətləri, simptomları, mənfi və müsbət tərəfləri, idarə olunma üsulları və Psixososial dəstəyin göstərilməsi*** mövzularında seminarlar təşkil olunmuşdur. Seminar iştirakçıları Sertifikatlarla təltif olunmuşdur.
- AzQAC-nin Sağlamlıq və Qayğı şöbəsi il ərzində tərəfdaş təşkilatların həyata keçirdiyi tədbirlərdə də həvəslə iştirak edib lazımı məlumatları təqdim etmişdir. Azərbaycan Diabet Liqasının Lənkəran şəhərində təşkil olunmuş yay düşərgəsində gənclər və yeniyetmələr arasında həm sağlamlıq, həm də Beynəlxalq Hərəkatın yaranması, fəaliyyətləri və Fundamental Prinsipləri haqqında biliklər yayılmışdır;
- QDA-nın dəvəti ilə Cəlilabad rayonunda "Tütünsüz Həyat" layihəsinin təqdimatında AzQAC Sağlamlıq və Qayğı şöbəsi əməkdaşları iştirak etmişdir. Tədbirdə Cəlilabad rayonunun dövlət strukturlarının rəhbərləri və gənc nümayəndə heyətinə tütün və onun müxtəlif növlərinin insan orqanizminə məhvedici təsiri haqqında məlumat verilmiş və zərərli vərdişlərdən azad olub sağlam həyat tərzini seçməyə müraciət olunmuşdur;
- İl ərzində AzQAC-nin Sağlamlıq və Qayğı şöbəsinin təşkilatçılığı ilə Birləmiş Millətlər Təşkilatı (BMT) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən bəyan edilmiş beynəlxalq günlər qeyd olunmuşdur;
- AzQAC ənənəvi olaraq 7 Aprel "Ümumdünya Sağlamlıq Günü"nü qeyd etmişdir. 2014-cü ildə ÜST tərəfindən elan edilmiş günün şüarı "Kiçik Sancma-Böyük Təhlükə Mənbəyidir" olmuşdur. Azərbaycan Tibb Universitetinin Yoluxucu Xəstəliklər Kafedrası və Azərbaycan Uşaq və Gənclər Sülh Şəbəkəsi ilə birlikdə təşkil olunmuş tədbirdə 60 nəfərdən artıq uşaq, yeniyetmə və gəncə qeyd olunan tarix haqqında geniş

məlumat verilmiş, milçək, ağcaqanad, gənələr və digər infeksiya ötürücüləri vasitəsilə törənən xəstəliklərlə mübarizə, profilaktik tədbirlərin həyata keçirilməsinin vacibliyi izah olunmuşdur;

- Dünyada 28 iyul tarixi "Ümumdünya Hepatit Günü" kimi qeyd olunur. AzQAC bu günlə əlaqədar bir çox şəhər və rayon bölmələrinin təşkilatçılığı ilə əhalinin müxtəlif təbəqələri, İcra Hakimiyyəti, səhiyyə, təhsil və mədəniyyət ocaqlarında çalışan əməkdaşları, bir sıra icma arasında maarifləndirici seminarlar həyata keçirmişdir. Təqdimatlar zamanı hepatitləri törədən viruslar (A, B, C, D), hepatit xəstəliyi ilə əlaqədar müayinə və müalicə, cəmiyyətdə bu xəstəliyə olan yanaşmalar və davranışlar haqqında məlumatlar öz əksini tapmışdır;
- 10 oktyabr "Ümumdünya Psixi Sağlamlıq Günü" ölkədə ilk dəfə məhz AzQAC-ın təşəbbüsü ilə 2004-cü ildən qeyd edilməyə başlamışdır. AzQAC bu günlə əlaqədar 1 saylı Respublika Psixiatriya Xəstəxanasının reabilitasiya və uşaq şöbələrində bədii-musiqili tədbir təşkil etmişdir. Müalicə alan 40 nəfər uşaq və onlara xidmət göstərən tibb işçiləri qarşısında AzQAC konüllülərindən ibarət musiqi ansamblı çıxış etmişdir.
- AzQAC tərərfindən ənənəvi olaraq qeyd olunan növbəti gün 1 Dekabr "Ümumdünya QİÇS-lə mübarizə günü"dür. Bü gün Milli Cəmiyyətin bir sıra şəhər və rayon bölmələri Azərbaycan Respiblikası Səhiyyə, Gənclər və İdman Nazirlikləri, Respublika QİÇS-lə Mübarizə Mərkəzinin elan etdiyi "**Avropa həftəsi"** adlı təşəbbüsünə qatılmışdır. Bakı, Sumqayıt şəhərlərində və regionlarda təhsil ocaqlarında (Azərbaycan Neft Akademiyası, Bakı Slavyan Universiteti, Sumqayıt Dövlət Universiteti və s.) **900-dən** artıq müəllim, tələbə və yuxarı sinif şagirdinin iştirakı ilə seminarlar, görüşlər təşkil edilmışdir. Müxtəlif təhsil ocaqlarında gənclər arasında test yoxlamalar aparılmışdır. Sevindirici haldır ki, müayinə olunanlar arasında İİV-ə yoluxma halları qeydə alınmamışdır. Ümumilikdə, 15 mindən artıq insan bir həftə ərzində İİV-testdən keçmişdir.

Hesabat dövründə ümumilikdə 55,000 nəfər yuxarıda qeyd olunan mövzular ətrafında maarifləndirilmişdir.

*Könüllü təmənnasız qan donorluğunun inkişafı sahəsində aparılan fəaliyyətlər*

**Fəaliyyətlər**

AzQAC ölkədə könüllü təmənnasız qan donorluğunun inkişafına dəstək məqsədilə dövlət qurumları, tədris ocaqlarının nümayəndələri, icma üzvləri, yeniyetmə və gənclər arasında bir sıra fəaliyyətlər həyata keçirmişdir. Buna könüllü qan donorlarından ibarət gənclər qrupları şəbəkəsinin yaradılması, ***Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafı*** mövzusunda seminarların, görüşlərin, qan aksiyalarının təşkil olunması, çap materiallarının buraxılışı aiddir. İl ərzində **5** qanvermə aksiyası təşkil olunmuş və nəticədə **500** nəfər könüllü olaraq qan vermişdir.

- 2014-cü il iyunun 14-də "Ümumdünya Qan Donoru Günü"ndə AzQAC və qan donorluğu işçi qrupunun[1] təşkilatçılığı və bir sıra dövlət və QHT-lər, mütəmadi könüllü qan donorlarının iştirakı ilə ilk dəfə olaraq Azərbaycan Gənc Qan Donorlarının 1-ci Forumunu Bakı şəhərində təşkil etmişlər. Tədbirdə AzQAC-nin Prezidenti, mütəmadi qan donoru olan Novruz Aslanov QDA tərəfindən "Fəxri donor" mükafatı ilə, bir sıra fəal qan donoru isə Təşəkkürnamələrlə təltif olunmuşlar. 35 il ərzində AzQAC-ın fəxri üzvü və qan donoru olan Tahirə Əkbərovanın Forumun iştirakçılarına video müraciəti nümayiş etdirilmişdir. Eyni zamanda tədbirdə iştirakçıları qan sahəsində maraqlandıran suallar və bu sahənin inkişafına dair təkliflər səsləndirilmişdir. Tədbirdə Azərbaycan QAC-ın Vitse-Prezidenti Qafar Əsgərzadə və İcraçı Katib Bayram Vəliyev iştirak etmişlər. Sonda forum iştirakçıları Bakı Bulvarında bütün qan donorlarını təbrik etmək üçün qırmızı rəngli şarları havaya uçurmuşlar.

[1] İşçi qrupuna AzQAC-la yanaşı Azərbaycan Səhiyyə Nazirliyi nəzdində İçtimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), Qan Donorları Assosiasiyası (QDA), Gənclər üçün Təhsil Mərkəzi (GTM), Azərbaycan Tələbə Gənclər Təşkilatlar İttifaqı (ATGTİ) daxildir.

- AzQAC və qan donorluğu işçi qrupunun təşəbbüsü ilə Bakı və Sumqayıt şəhərləri, İsmayıllı, Sabirabad və Tərtər rayonlarında fəaliyyət göstərən uşaq və yeniyetmələrin yaradıcılıq mərkəzləri və tam orta məktəblərin şagirdləri arasında "Qan həyat mənbəyidir! Qan ver, həyat xilas et!" adlı rəsm müsabiqəsi elan olunmuşdur. 156 rəsmdən mütəxəssislər tərəfindən seçilmiş **40** rəsm əsəri Bakı şəhərində yerləşən **Metro Park Ticarət və Əyləncə Mərkəzində** təşkil olunan sərgidə nümayiş etdirilmişdir. Rəsm işlərinin qalibləri ən yaxşı ideya müəllifləri mükafatlandırılmışlar. Müsabiqəyə qatılan hər bir şagird həvəsləndirmə məqsədilə sertifikatla təltif olunmuşdur.

Hesabat dövründə ümumilikdə, 16,000 əhali arasında bu sahədə maarifləndirmə işləri aparılmışdır.

*İlk Yardım vərdişlərinə yiyələnmək üçün fəaliyyətlərin genişləndirilməsi*

**Fəaliyyətlər**

- 2014-cü ildə BQXK-nin təşəbbüsü və dəstəyi, Avstriya Qızıl Xaç Cəmiyyətinin iştirakı ilə AzQAC-ın İlk Yardım üzrə fəaliyyətinin, yerlərdə olan potensialının, bilik və bacarıqların və eyni zamanda lazımi tədris, əyani vəsaitlərinin mövcudluğuna dair Bakı, Sumqayıt şəhərləri və 9 rayonda qiymətləndirmə prosesi həyata keçirilmişdir. Qiymətləndirmənin sonunda AzQAC rəhbərliyinə hesabatlar və tövsiyyələr təqdim olunmuşdur. Avstriya Qızıl Xaç Cəmiyyəti AzQAC-ın İlk Yardım layihəsinin özünün Tirol şəhər bölməsinin vasitəsilə dəstək etməsi arzusunu bildirmişdir. Layihənin 2015-ci ildə həyata keşirilməsi gözlənilir.
- İl ərzində BQXK tərəfindən dəstəklənən və AzQAC İlk Yardım sektoru tərəfindən həyata keçirilən təlimlərdə AzQAC-ın sərhədyanı **15** rayon bölməsinin (Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Gəncə, Goranboy, Göygöl, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzuli, Beyləqan) işçi heyəti, gənclər üzrə təlimatçıları və könüllüləri, icma üzvləri iştirak etmişlər. İştirakçılara İlk Yardım tədris proqramına daxil olan mövzular təqdim olunmuş, müxtəlif praktiki məşğələlər həyata keçirilmişdir. İştirakçılara İlk Yardım təlimat kitabları paylanılmış, həmçinin, İlk Psixoloji Yardım, onun nə zaman, hansı şəraitdə və necə göstərilməsi haqqında da məlumatlar verilmişdir.
- İl ərzində AzQAC-nin Sabunçu rayon bölməsinin təşəbbüsü və təşkilatçılığı ilə Sabunçu rayonunda yerləşən Planlaşdırma və İqdisadiyyat Kollecinin tələbələrinə, həmçinin Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), Bakı Slavyan Universiteti, Turizm Universitetinin Milli Cəmiyyətdə İstehsalat təcrübəsi keçən ümumilikdə **237** tələbəsinə və "Həyat" Beynəlxalq Təşkilatının təşkilatçılığı ilə **27** miqranta İlk Yardım vərdişləri üzrə seminarlar keçirilmişdir. Eyni zamanda belə təlimlər AzQAC Baş Qərargahının **30** nəfər işçi heyəti üçün də təşkil olunmuşdur.
- Bakı şəhəri Badamdar qəsəbəsində yerləşən Kempinski hotelinin rəhbərliyinin AzQAC-a müraciəti əsasında Kempinski hotelin nəzdində olan "Aqua Park"-ın **14** xilasedicisi üçün pullu İlk Yardım təlimi keçirilmişdir. Təlimin sonunda iştirakçılara İlk Yardım vəsaiti və İlk Yardım kursunu bitirmək haqqında sertifikatlar təqdim olunmuşdur.
- AzQAC Avstriya Qızıl Xaç Cəmiyyətinin dəstəyilə 2012-ci ildən başlayaraq, İsmayıllı və Zaqatala rayonlarında "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" layihəsini həyata keçirir. Həmin layihə çərçivəsində 2014-cü ildə ***Şəhər şəraitində fəlakət zamanı risklərin azaldılması*** mövzusunda İsmayıllı şəhərində kütləvi tədbir keçirilmişdir. Əhaliyə əyani ləvazimatlardan istifadə ilə ilk yardım edə bilmə vərdişləri üzrə nümayişlər təqdim olunmuşdur. İsmayıllı rayonunun Kürdmaşı kənd məktəbində **70** iştirakçı arasında keçirilən simulyasiya tədbirində ***Axtarış, xilasetmə və ilk yardım mövzusu üzrə biliklər verilmişdir.***
- Hər il sentyabrin ayının ikinci şənbə günü Beynəlxalq Hərəkat "Ümumdünya İlk Yardım Günü"nü müxtəlif şüarlarla qeyd edir. 2014-cü ildə şüar "Qəhrəman ol. Həyat xilas et" olmuşdur. AzQAC tərəfindən bu günlə bağlı şəhər və rayon bölmələrinin fəal iştirakı və

bir sıra tərəfdaş təşkilatın əməkdaşlığı ilə (AGAT təşkilatının nəzdində yaranan “Bakı Biznes və Etika” akademiyasında, Fövqəladə Hallar Nazirliyinin Sumqayıt Regional Mərkəzində və “Həyat” Beynəlxalq Humanitar Təşkilatının “Qaçqın, qadın və gənclər” mərkəzində) müxtəlif tədbirlər həyata keçirilmişdir. Tədbirlərdə iştirakçılara Beynəlxalq Federasiyanın 2013-2014-cü illərdə çəkilmiş İlk Yardım üzrə animasiya filmləri nümayiş etdirilmiş, əyani vəsaitlər təqdim olunmuşdur. İştirakçıların ümumi sayı **595** nəfər olmuşdur.

Hesabat dövründə **5,224** nəfər arasında bu sahədə təlimlər və maarifləndirmə işləri aparılmışdır.

*Dərmanlara davamlı vərəm xəstələrinin müalicəsinə nəzarət*

**Fəaliyyətlər**

AzQAC-ın “Dərmanlara Davamlı Vərəmli xəstələrin müalicə olunmasına tibbi və psixo-sosial dəstək” adlı layihəsi 2014-cü ildə də davam etdirilmişdir. Bu layihə çərçivəsində Bakının Yasamal, Nəsimi, Binəqədi rayonu üzrə Vərəm dispanserində qeydiyyatda olan və aktiv müalicə proqramına qoşulan **25** vərəmli xəstə ilə mütəmadi olaraq təşkil edilən görüşlərdə onların ehtiyacları, yaşayış imkanları, müalicənin gedişi, dərmanların müsbət təsiri, onların yaratdığı fəsadlar və s. qiymətləndirmək məqsədilə sorğular aparılmışdır. Layihə çərçivəsində il ərzində 1 nəfər dünyasını dəyişmiş, 2 nəfər müalicəni uğurla bitirmiş, digər xəstələr isə müalicəni uğurla davam etdirirlər.

AzQAC **24 Mart “Ümumdünya Vərəmlə Mübarizə Günü”nü** Kempinski Otelin əməkdaşları ilə birgə keçirmişdir. Otelin **50-dən** artıq işçi heyətinə dünyada və Azərbaycanda vərəmə dair həyata keçirilən layihələr haqqında məlumat verilmişdir. İştirakçılara vərəmli xəstələrin vaxtında aşkarlanmasında hər bir kəsin rolu və cəmiyyətdə bu insanlara göstərilən xidmətlərin lazımi qaydada təşkil olunması bildirilmişdir. Eyni zamanda vərəmə düçar olan xəstələrə qarşı cəmiyyətdə təcrid olunma və damğalanma davranışının da bu xəstəliyin geniş yayılmasında rolunun olması qeyd edilmişdir.

## İnformasiya və Beynəlxalq Əlaqələr

**Məqsəd:**

AzQAC-nin fəaliyyətləri haqqında məlumatları Kütləvi İnformasiya Vasitələri (KİV) və ictimaiyyət arasında daha effektiv yaymaq, digər ölkələrin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri, BQXK, Beynəlxalq Federasiya və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi üçün davamlı olaraq əlaqələr qurmaq.

**Fəaliyyətlər:**

- İl ərzində AzQAC-nin Prezidenti Dr. Novruz Aslanov və qurumun İcraçı Katibi Bayram Vəliyev BQXK-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri xanım Denise Duranla hər iki qurum arasında mövcud olan əməkdaşlıq üzrə fəaliyyətləri müzakirə etmək məqsədilə ümumilikdə 5 rəsmi görüş keçirmişlər;
- 2014-cü ilin aprel və noyabr aylarında AzQAC-nin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda fəaliyyət göstərən Beynəlxalq Hərəkatın tərkib hissələri olan BQXK, Beynəlxalq Federasiya, Avstriya Qızıl Xaç Cəmiyyəti, Almaniya Qızıl Xaç Cəmiyyəti, İran Qızıl Aypara Cəmiyyəti ilə birgə əməkdaşlığın müzakirəsini nəzərdə tutan koordinasiya görüşləri keçirilmişdir;
- 2014-cü il may ayının 7-də AzQAC İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsi və Təşkilat İdarəsinin təşkilatçılığı ilə Bakı şəhəri, Milli İncəsənət Muzeyində AzQAC-ın Fəxri Üzvü, Ümummilli Lider Heydər Əliyevin 91-ci il dönümü, həmçinin “Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günü” münasibəti ilə tədbir keçirilmişdir. Tədbirdə Azərbaycanlı iş adamları, müvafiq dövlət qurumları, beynəlxalq təşkilatların, yerli qeyri-

hökumət təşkilatlarının nümayəndələri, xarici ölkələrin səfirləri, AzQAC-ın Rəyasət Heyətinin üzvləri və s. iştirak etmişlər;

- İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və FHN-nin təşkilatçılığı ilə 2014-cü il 4-5 iyun tarixində Qəbələ şəhərində "İqtisadi Əməkdaşlıq Təşkilatının Fəlakət riskinin idarə olunması üzrə 7-ci Beynəlxalq Konfransı" keçirilmişdir. Konfransda İƏT-na üzv olan Azərbaycan, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkiyə və Türkmənistan respublikalarının fövqəladə halların idarə edilməsi sahəsində cavabdeh dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri, həmçinin Birləşmiş Millətlər Təşkilatı (BMT), BMT-nin Uşaq Fondu (UNİCEF), BMT-nin Asiya və Sakit Okean ölkələri üçün İqtisadi və Sosial Komissiyası, BMT-nin Humanitar Yardımlarının İdarə Edilməsi Ofisi (OCHA), Almaniya Texniki Yardım Federal Agentliyi (GİZ), Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Yaponiya Beynəxalq Əməkdaşlıq Agentliyi (JİCA), Asiya Fəlakətlərə Hazırlıq Mərkəzi, Asiya Fəlakətlərin Azaldılması Mərkəzi, İƏT-in Fəlakət Riskinin İdarə edilməsi Regional Mərkəzi, "Freie" Universiteti, Mərkəzi Asiya Tədqiqi GeoElmlər İnstitutu, Beynəlxalq Zəlzələ Mühəndisliyi və Seysmologiya İnstitutu, Almaniya Qızıl Xaç Cəmiyyəti, AzQAC-ın Vitse-Prezidenti Qafar Əsgərzadə və qurumun İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Seymur Hümbətov iştirak etmişlər;
- Türkiyənin ölkəmizdəki səfirliyinin binasında, Nuri Paşa Salonunda AzQAC-nin təşəbbüsü ilə Türkiyənin Manisa Vilayətinin Soma mədənində baş vermiş faciə zamanı həyata keçirilən yardım kampaniyasında fəal iştirak edərək fərqlənmiş şəxslər mükafatlandırılmışdır. Millət vəkillərinin, KİV nümayəndələrinin, QHT rəhbərlərinin və mədəniyyət xadimlərinin iştirakı ilə keçirilən tədbirdə AzQAC-nin Prezidenti, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Dr. Novruz Aslanov və Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri İsmail Alper Coşkun çıxış etmişlər. Natiqlər yaxın tarixin böyük faicəsi olan Soma fəlakətinin bütün türk dünyasının faciəsi olduğunu vurğulamışlar. Çıxışçılar Azərbaycanın Somaya ilk yardım göndərən ölkələrdən olduğunu qeyd edərək AzQAC-nin Somaya yardım kampaniyasını həyata keçirən zaman ona dəstək olan Millət Vəkillərinə, ictimai xadimlərə, mədəniyyət nümayənlərinə sadə Azərbaycan vətəndaşlarına öz minnətdarlıqlarını bildirmişlər;
- “Bizim iki dövlət arasında olan effektli münasibətlər hərtərəfli və müxtəlif sahələri əhatə edir. Şadıq ki, bu əməkdaşlıqda Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının nümayəndələri yaxından iştirak edir” - bu sözləri Azərbaycanda Almaniya Səfirinin İqtisadi məsələlər üzrə 1-ci katibi Dr. Wolfgang Mössinger AzQAC-nin nümayəndə heyəti ilə görüşdə vurğulamışdır. Əsas məqsəd Milli Cəmiyyətin apardığı fəaliyyətlərin təqdimatı, Almaniya Qızıl Xaç Cəmiyyəti ilə bu vaxta qədər qurulmuş nəticəli əməkdaşlıq və tərtib olunmuş layihələrin yüksək səviyyədə həyata keçirilməsidir.

*Beynəlxalq səfərlər, təmsilçilik, tədbirlərdə iştirak*

- 2014-cü il 27-31 avqust tarixlərində AzQAC Prezidenti, Milli Məclisin Deputatı Novruz Aslanovun rəhbərlik etdiyi Nümayəndə Heyəti Qazaxstan və Qırğızıstanın Milli Qızıl Aypara Cəmiyyətlərinin fəaliyyətləri ilə tanış olmaq məqsədilə həmin ölkələrə rəsmi səfər etmişdir. Səfər zamanı Nümayəndə Heyəti həm Qazaxstan, həm də Qırğızıstanın Qızıl Aypara Cəmiyyətlərinin Prezidentləri, Baş Katibləri və digər əməkdaşları ilə görüşlər həyata keçirmişdir. Görüşlərdə AzQAC və Qazaxstan, həmçinin, Qırğızstan Qızıl Aypara Cəmiyyətləri arasında mövcud olan əməkdaşlıq, gələcəkdə nəzərdə tutulan yeni əməkdaşlıq perspektivləri, təşkilatlararası təcrübə mübadiləsi və s. müzakirə olunmuşdur;
- 2014-cü ilin sentyabr və noyabr aylarında AzQAC-nin Prezidenti, Milli Məclisin Deputatı Novruz Aslanov, AzQAC-ın İcraçı Katibi Bayram Vəliyev və İcraçı Katibin müavini Şaban Şayev öncə İsveçrənin Cenevrə şəhərində, sonra isə Macarıstanın Budapeşt şəhərində səfərdə olmuşlar. Səfərlərin məqsədi dünyanın ən böyük humanitar təşkilatı olan Beynəlxalq Federasiyanın Konstitusiyasına müvafiq dəyişikliklərin

olunması üzrə İdarə Heyətinin iclasında və Avropa Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin iclasında Avropanı təmsil edən nümayəndə kimi iştirak etmək olmuşdur. Təşkil olunan iclaslarda AzQAC-nin Prezidenti, Milli Məclisin Deputatı Dr. Novruz Aslanov bu mövzu üzrə Avropanı təmsil edən nümayəndə kimi dəyərli fikirlər və təkliflər irəli sürmüşdür;

- 2014-cü il aprelin 07-28 tarixlərində Cin Qızıl Xaç Cəmiyyətinin(ÇQXC) dəvəti və təşkilatçılığı ilə Pekin şəhərində seminar keçirilmişdir. Seminarda AzQAC-nin Vitse-Prezidenti Qafar Əsgərzadə iştirak etmişdir.Seminarın məqsədi Avropa və Asiya ölkələrinin Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri arasında birgə əməkdaşlıq, fəaliyyətlər və bu və ya digər sahələrdə müzakirələr olmuşdur. Daha sonra yuxarıda qeyd etdiyimiz Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin rəsmiləri ÇQXC-nin əyalətlərindəki ofislərinə səyahət etmiş və gördükləri işlərlə yaxından tanış olmuşlar.
- 2014-cü il 05-08 oktyabr tarixlərində İsrailin Azərbaycandakı səfirliyinin dəstəyilə AzQAC-nin Prezidenti, Milli Məclisin deputatı Dr. Novruz Aslanovun rəhbərlik etdiyi 4 nəfərdən ibarət Nümayəndə Heyəti İsrailin Magen David Adom Milli Cəmiyyətinin rəsmiləri ilə görüşmək, müzakirələr aparmaq, ikitərəfli əməkdaşlıq əlaqələrini genişləndirmək məqsədilə həmin ölkəyə səfər etmişlər. Səfər zamanı AzQAC-nin Nümayəndə Heyəti İsrailin Magen David Adom Milli Cəmiyyətinin İcraiyyə Komitəsinin sədri Dr. Noam Yifrah və digər əməkdaşlarla görüş keçirmişdir. Görüşdə hər iki Milli Cəmiyyət arasında mövcud olan hazırkı əməkdaşlıq səviyyəsi, birgə həyata keçirilmiş humanitar fəaliyyətlər və s. müzakirə olunmuşdur. Görüşdə həmçinin hər iki təşkilat arasında mövcud olan Əməkdaşlıq Memorandumunun vaxtı daha 3 il müddətinə uzadılaraq yenidən imzalanmışdır;
- 2014-cü il 1-3 oktyabr tarixlərində Gürcüstanın Tbilisi şəhərində post sovet ölkələrinin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri rəhbərlərinin görüşü keçirilmişdir. Görüşün məqsədi 2012-ci ildə Minskdə keçirilmiş ("Belarus öhdəlikləri") ötən görüşdə qəbul edilmiş qərar və öhdəliklərin, onların bu və ya digər dərəcədə həyata keçirilməsinin müzakirəsi, Beynəlxalq Federasiya Konstitutyasına müəyyən əlavə, dəyişiklik və təkliflərin verilməsi olmuşdur. Müzakirə olunacaq məsələlərə hökumətlə işləmək, Fövqəladə Hallara Hazırlıq, Miqrasiya işləri, regional əməkdaşlıq və s. daxil olmuşdur. Görüşə qatılan AzQAC-ın Vitse-Prezidenti Qafar Əsgərzadə öz çıxışında xüsusilə, Minskdə qəbul edilən öhdəliklərin və qərarların həyata keçirilməsi işinin ölkəmizdə hökumətlə lazımi səviyyədə qurulması haqqında olmuşdur;
- 2014-cü il ərzində AzQAC-nin İcraçı Katibi Bayram Vəliyev Beynəlxalq Hərəkatın inkişafına hesablanan müxtəlif seminarlar, konfranslar, iclaslar, təlimlər və s.də ölkəmizi təmsil etmişdir. O, 2014-cü il iyun ayında İtaliyanın Florensiya şəhərində keçirilən Qızıl Xaç və Qızıl Ayparanın 9-cu Avropa Konfransında sədr müavini kimi iştirak edərək AzQAC-ni təmsil etmişdir.
- 2014-cü ilin fevral ayında Gürcüstan Respublikasınınn Bakuriani şəhərində "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" layihəsinin birinci fəaliyyət ilinin yekun nəticələrinə dair konfrans keçirilmişdir. Konfransda "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" layihəsinin koordinatoru Elşən Səlimzadə, AzQAC-nin FHHC şöbəsinin müdiri (layihənin rəhbəri) Fərid Seyidzadə, AzQAC-nin İcraçı Katibinin müavini (layihənin hesabatçısı) Şaban Şayev, AzQAC-nin baş iqtisadçısı (layıhənin maliyyəçisi) İradə İbrahimova və AzQAC-nin İcraçı Katibinin müavini (Şərq İqlim Forum layihəsinin koordinatoru) Ceyhun Mirzəyev iştirak etmişlər. Konfransda geniş müzakirələr, fikir mübadilələri aparılmış, Milli Cəmiyyətlərin təcrübələri haqqında məlumatlar və layihə ilə bağlı təqdimatlar dinlənilmişdir;
- 2014-cü ilin dekabr ayında "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" layihəsi ilə əlaqədar Avstriya Qızıl Xaç Cəmiyyəti Gürcüstan Respublikasının Tiflis şəhərində layihənin ikinci ilinin yekunlarına dair regional görüş keçirmişdir. Görüşdə AzQAC-nin layihə üzrə əmədaşları Elşən Səlimzadə və Fərid Seyidzadə iştirak edərək görülən işlər haqqında geniş məlumat vermişlər;

- 2014-cü il mayın 20-də AzQAC-nin on bir nəfərdən ibarət işci heyəti İran İslam Respublikasının Tehran şəhərində İran Qızıl Aypara Cəmiyyətinin fövqəladə hallar zamanı fəlakətlərə cavabvermə planı və krizislərin idarə olunması mövzusunda təşkil etdiyi 6 günlük seminarda iştirak etmişdir;
- 2014-cü il 02-06 iyun tarixlərində Macarıstan Respublikasının Budapeşt şəhərində, Beynəlxalq Federasiyanın Avropa Zona ofisi tərəfindən "Fəlakət Zamanı Fəlaliyyət Planı" ilə əlaqədar məşğələ keçirilmişdir. Məşğələ zamanı ekspertlər tərəfindən təqdimatlar olunmuş, praktiki işlər aparılmış və fəlakət zamanı fəaliyyət planının tərtib olunmasına dair lazımi tövsiyyələr verilmişdir. AzQAC-ın FHHC şöbəsinin müdiri Fərid Seyidzadə həmin məşğələdə iştrak etmişdir.
- 2014-cü il 29 aprel 02 may tarixlərində Türkiyənin İstanbul şəhərində Türk Kızıl Ayının köməyi, Beynəlxalq Federasiyasının təşkilatçılığı, Avropa regionuna daxil olan 17 Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətinin iştirakı ilə Sağlam Həyat Tərzi və Qeyri-İnfeksion Xəstəliklər üzrə aparıcı təlimatçılara təlim keçirilmişdir. Təlimdə aşağıdakı mövzular əhatə edilmişdir: dörd qeyri-infeksion xəstəlik və riskli faktorlar, icma üzvlərinə sağlamlığa qarşı riskli davranışların müəyyənləşdirilməsində və sağlam davranışları qəbul etməyə başlanmasında yardım, sağlamlıq üzrə məqsədlərin və fəaliyyət planının yaradılması və icma üzvlərinə onların qeyri-sağlam davranışlarının dəyişilməsində dəstək. AzQAC Sağlamlıq və Qayğı şöbəsinin müdiri Səbinə Məhbubi-İranın iştirakı ilə təmsil olunmuşdur;
- 27-31 avqust tarixlərində AzQAC-ın fəal gənc könüllüsü, mütəmadi qan donoru Mədaim Rəhimli və "Qan Donorları Assosiasiyası"nın sədri Fuad Əsgərov Mərakeş Krallığının Kasablanka şəhərində təşkil olunmuş **Dünya Gənclərinin XIV Forumunda** iştirak etmişlər. Forum Beynəlxalq Qan Donorları Cəmiyyətləri Federasiyasının təşkilatçılığı ilə keçirilmişdir. Forumun əsas məqsədi dünya mütəmadi gənc qan donorları arasında əlaqələri gücləndirmək, təcrübə mübadiləsinə dəstək olmaq və fəaliyyətin inkişafını tənzimləməkdən ibarət olmuşdur. Forum çərçivəsində təmsilçilərimiz Beynəlxalq Qan Donorları Cəmiyyətləri Federasiyasının prezidenti Gianfranco Massaro və Beynəlxalq Gənclər Komitəsinin sədri Alicia Simanetti ilə rəsmi görüş keçirmiş və gələcək müştərək layihələri də müzakirə etmişlər
- 2014-cü il 9-11 oktyabr tarixlərində AzQAC-ın Sağlamlıq və Qayğı şöbəsinin müdiri Fransanın paytaxtı Paris şəhərində Avropanın İlk Yardım üzrə Bilik və Bacarıq Şəbəkəsi (FAEEN) və Fransa Qızıl Xaç Cəmiyyəti tərəfindən Avropa ölkələrinin Milli Cəmiyyətlərinin İlk Yardım üzrə mütəxəssisləri və Sağlamlıq Şöbələrinin Rəhbərləri üçün təşkil olunan illik görüşdə iştirak etmişdir. Görüşün məqsədi Milli Cəmiyyətlərin proqramlarının şəbəkə vasitəsilə gücləndirilməsi olmuşdur. Görüşdə şəbəkənin fəaliyyəti, bilik və bacarıqların mütəmadi olaraq bölüşməsi, öhdəliklər, şəbəkə vasitəsilə Milli Cəmiyyətlərin bir-birlərinə köməyi və digər şəbəkələrin Milli Cəmiyyətlərdə İlk Yardım təhsilinin gücləndirilməsinə təsiri işi müzakirə və şərh olunmuşdur.
- Belarus Respublikasının Minsk şəhərində 2014-cü il 2-4 dekabr tarixlərində qeyri-infeksion xəstəliklər üzrə MDB ölkələrinin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinə (Azərbaycan, Belarus, Gürcüstan, Ermənistan, Latviya, Litva, Qazaxıstan, Qırğızıstan, Rusiya, Türkmənistan, Ukrayna) rus dilində seminar-məşğələ təşkil olunmuşdur. Tədbirin təşkilatçıları Beynəlxalq Federasiyanın Avropa Zona ofisi və Belarus Qızıl Xaç Cəmiyyəti olmuşdur. Seminarın əsas məqsədi sağlamlıq üzrə yeni istiqaməti təqdim etməklə hər bir Milli Cəmiyyətdə sağlamlıq, gənclər və könüllülər şöbələrində aparıcı təlimatçıların hazırlanması və birgə təşəbbüslərin irəli sürülməsi, gənclər və könüllülərin bu sahədə rolunun gücləndirilməsi, qeyd olunan mövzuya dair fəaliyyətlərin cəmiyyət daxili, digər aidiyyatı olan və əməkdaşlıq edilən təşkilatlarla təşkil edilməsidir. AzQAC Sağlamlıq və Qayğı Şöbəsinin müdiri Səbinə Məhbubi-İran bu seminar-məşğələyə təlimatçılardan biri kimi rəsmi şəkildə dəvət olunmuşdur. Eyni zamanda AzQAC Sağlamlıq və Qayğı şöbəsinin İcmaya Əsaslanan Sağlamlıq proqramının rəhbəri Mətanət Qaraxanova və Gənclər Komitəsisnin sədri Lalə Nəzərova ilə də təmsil olunmuşdur.

*Beynəlxalq Hərəkatı, Fundamental Prinsiplər və Beynəlxalq Humanitar Hüququn (BHH) əsasının yayımı*

**Məqsəd:**

Beynəlxalq Hərəkatnın yaranması, tarixi, tərkib hissələri (BQXK, Beynəlxalq Federasiya və Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri), Hərəkatın Fundamental Prinsipləri, Qızıl Xaç, Qızıl Aypara və Qızıl Kristal emblemlərindən düzgün istifadə qaydaları, Beynəlxalq Humanitar Hüququn (BHH) əsasları haqqında məlumatları ictimaiyyət arasında yaymaq.

**Fəaliyyətlər:**

- İl ərzində 1850 nəfər Beynəlxalq Hərəkatın yaranması, tarixi, tərkib hissələri, fəaliyyətləri, Fundamental Prinsipləri, BHH-un əsaslarını özündə cəmləşdirən modul treyninq kursunu dinləmiş, Bakı, Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad, Gəncə RM-dən 100 könüllü isə modul treyninq təlimatçısı kimi hazırlanmışdır. Həmin təlimatçılar rayonlarda əhali üçün seminarlar həyata keçirirlər;
- 2014-cü il ərzində BQXK-nin dəstəyi ilə AzQAC-nin cəbhə bölgəsində fəaliyyət göstərən 3 Regional Mərkəz və 17 rayon və şəhər bölməsində çalışan gənclər üzrə təlimatçılara 2 dəfə 3 günlük geniş seminar keçirilmişdir. Seminarın əsas məqsədi gənclər üzrə təlimatçılara Beynəlxalq Hərəkat, onun yaranması, tarixi, fəaliyyətləri, tərkib hissələri, Fundamental Prinsipləri, BHH, AzQAC-nin yaranması, tarixi, fəaliyyətləri haqqında geniş məlumat vermək olmuşdur;
- 2014-cü il aprelin 1-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) 50 nəfər I kurs tələbəsinə AzQAC yayım sektoru tərəfindən seminar keçirilmişdir;
- 2014-cü il 29 avqust - 1 sentyabr tarixlərində AzQAC-nin Baş Qərargahında Sumqayıt və Lənkəran Regional Mərkəzinə daxil olan rayon bölmələrinin sədrləri üçün geniş şəkildə yayım seminarı keçirilmişdir;
- 2014-cü ilin avqust ayında AzQACın Baş Qərargahında istehsalat təcrübəsində olan Bakı Slavyan Universitetinin tələbələrinə yayım seminarı keçirilmişdir;
- AzQAC-nin yayım sektoru tərəfindən 2014-cü il tarixində Bakı şəhərində yerləşən bir neçə müəssisə və təşkilatda "Qızıl Xaç" və "Qızıl Aypara" emblemindən sui-istifadə halı aşkar olunmuşdur. Düzgün aparılan məlumatlandırma nəticəsində bir neçə müəssisə və təşkilatda mövcud Qanunvericiliyə uyğun şəkildə sui-istifadənin qarşısı alınmışdır.
- AzQAC-nin İnformasiy və Beynəlxalq Əlaqələr şöbəsi informasiya sahəsində 2014-cü ilin yekunu olaraq:

**Televiziyalarda yayımlanan tədbirlər :**

1. İctiami Televeziyasında 33 tədbirimiz yayımlanmışdır.
2. Xəzər Televiziyasında 15 tədbirimiz yayımlanmışdır.
3. Azərbaycan Dövlöt Televiziyasında 10 tədbirimiz yayımlanmışdır.
4. Azad Azərbaycan Televiziyasında isə 4 tədbirimiz yayımlanmışdır.

**Media və xəbər-portalları :**

1. "Nəzərmedia" xəbər portalında 70 məqalə:
2. "Avropa.az" saytında 25 məqalə:
3. "Modern.az" saytında 40 məqalə:
4. "APA.az" informasiya agentliyində 12 məqalə:
5. "AzərTac" informasiya agentliyində 7 məqalə:

**Qəzetlərdə çap edilmiş məqalələr :**

1. "Yeni təfəkkür" qəzetində 320 məqalə :
2. "Vışqa" qəzetində 50 məqalə :

**Problemlər:**

- Yayım materiallarının çap olunması üçün maliyyə vəsaitinin olmaması.
- Yerli bölmələrdə yayım təlimatçılarının işə cəlb olunması üçün maliyyə vəsaitinin çatışmaması.

## Təşkilati İnkişaf

**Məqsəd:**

AzQAC-nin Komitələrinin, Regional Mərkəzlərinin, yerli bölmə və ilk təşkilatlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan humanitar fəaliyyətləri həyata keçirmək məqsədilə Milli Cəmiyyəti milli və beynəlxalq müstəvidə insanlara dəstək olan güclü humanitar təşkilata çevirmək.

**Fəaliyyətlər:**

- İl ərzində AzQAC-nin Təşkilat İdarəsi əsasən 2011-2015-ci illəri nəzərdə tutan Strateji Planda göstərilən vəzifələrin icrasını həyata keçirmişdir. Dəfələrlə İdarə rəisi bu istiqamətdə Katibliyin müxtəlif şöbələri ilə müzakirələr aparmışdır. Müzakirələrin nəticəsi olaraq ümumilikdə, hesabat dövründə Strateji Planda nəzərdə tutulan təşkilati inkişafa dair qarşıya qoyulan vəzifələrin 70 %-nin öz həllini tapması və digər 30%-nin isə 2015-ci lin əvvəlində öz həllini tapa biləcəyi müəyyən edilmişdir;
- Qızıl Xaç və Qızıl Ayparanın Birgə Komissiyasının AzQAC Nizamnaməsi üzrə tövsiyyələrini nəzərə alaraq Milli Cəmiyyətin Prezidenti Dr. Novruz Aslanovun müvafiq əmri ilə Nizamnaməyə əlavə və dəyişikliklərin olunması və ümumiyyətlə yeni Nizamnamənin hazırlanması üzrə Komissiya yaradılmışdır. Komissiyaya sədrliyi AzQAC-ın Vitse-Prezidenti Qafar Əsgərzadə edir. 2014-cü il ərzində Komissiya 4 dəfə görüşərək AzQAC Nizamnaməsinin müvafiq maddələrinə əlavə və dəyişikliklər etmişdir. Komissiyanın iclaslarında iştirak etmək üçün BQXK və Beynəlxalq Federasiyanın xüsusi nümayəndələri də təyin olunmuşlar. Qeyd edək ki, yeni hazırlanacaq Nizamnamə AzQAC-ın 2017-ci ildə keçiriləcək XXIV Baş Məclisinə təsdiq üçün təqdim olunacaq;
- AzQAC-nin Baş Qərargahında təşkilat idarəsinin rəhbərliyi ilə 2011-2015-ci illər üçün Strateji Planda nəzərdə tutulan kommunikasiya və informasiya texnologiyalarının yerli bölmələrdə təchiz olunması mövzusunda Katibliyin aidiyyatı şöbələri ilə görüş keçirilmişdir. Görüşün davamı olaraq il ərzində AzQAC-ın Baş Qərargahında Bakı, Sumqayıt və Lənkəran Regional Mərkəzlərinin rayon bölmə sədrləri və İdarə Rəisi-Vitse Prezident Əziz Qocayev, Regional Mərkəz və Yerli Bölmələr üzrə iş şöbəsinin müdiri Ağayar Hüseynov arasında ayrı-ayrılıqda 3 görüş keçirilmişdir. Görüşdə 2011-2015-ci illəri əhatə edən Strateji Plana uyğun olaraq təşkilati məsələlərin öz həllini tapması, xüsusilə də Gənclər və Könüllülər siyasətinin yerlərdə düzgün aparılması, Nizamnaməyə ediləcək dəyişikliklər, fəaliyyət planı və hesabatların düzgün tərtibatı və s. təşkilati inkişaf məsələləri müzakirə olunmuşdur. 2011-2015-ci illər Strateji Planına əsasən 2014-cü ilin sonunadək bütün yerli bölmələrin kompyuter avadanlıqları ilə təmin olunması qərarlaşdırılmışdır. Bu kimi göstəriş bütün AzQAC rayon/şəhər,sahə bölmələrinin sədrlərinə verilmişdir;
- 2014-cü il dekabr ayının 4-də Azərbaycan Respublikası Təhsil Nazirliyi və AzQAC arasında birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması mərasimi baş tutmuşdur. Memorandumu Azərbaycan Respublikasının Təhsil Naziri cənab Mikayıl Cabbarov və AzQACnin Prezidenti, Millət Vəkili Dr. Novruz Aslanov imzalamışlar. Memoranduma əsasən, Təhsil Nazirliyi AzQAC-nin təhsil müəssisələrindəki humanitar fəaliyyətini dəstəkləyəcək. AzQAC isə Təhsil Nazirliyinin müraciəti əsasında təhsil alanlara müvafiq humanitar sahələrdə seminar, təlim, sessiya, kampaniya, yay düşərgələri, az təminatlı tələbələrə yardımlar və s. müvafiq dəstək verəcək. Həmçinin, dövlət ali təhsil müəssisələrinin humanitar fakültələrinin tələbələri üçün AzQAC-ın strukturlarında istehsalat təcrübəsinin keçirilməsinin təşkil olunması da nəzərdə tutulmuşdur;
- Cari il ərzində AzQAC-ın bütün rayon, şəhər, sahə bölmələri tərəfindən müxtəlif bayram günləri münasibətilə hümanitar yönümlü, eləcə də digər tədbirlər keçirilmişdir. AzQAC-nin rayon və şəhər,sahə bölmələrində Ramazan, Qurban, Novruz bayramıları və 31

dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" ilə əlaqədar əhaliyə təqdim olunan yardımların statistik göstəriciləri tərtib olunaraq şəffaflıq naminə Milli Cəmiyyətin rəsmi internet səhifəsində işıqlandırılmışdır. Bu bayramlarda AzQAC öz daxili imkanları, tərəfdaş qurumlar və donor təşkilatlarının dəstəyi ilə ehtiyacı olan insanlara humanitar yardımlar etmişlər (əsasən ərzaq bağlamaları). Ümumi olaraq yardımlar aşağıdakı qaydada olmuşdur :

-Novruz bayramında 3827 nəfərə - 68.000 manat;
-Ramazan bayramında 4020 nəfərə - 76.934 manat;
-Qurban bayramında 5.155 nəfərə - 75.404 manat;
-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bayramında 2187 nəfərə 46.327 manat məbləğində.

- Cari il ərzində AzQAC-nin təşkilat idarəsi qurumun Nizamnaməsinə uyğun olaraq rayon, şəhər və sahə bölmələrində Hesabat - Seçki Konfranslarını təşkil etmişdir. Konfranslarda idarə və müəssisə təşkilatlarının rəhbərləri, bölmənin üzvləri və könüllülərinin iştirakı təmin olunmuşdur;
- 2014-cü il dekabrın 19-da AzQAC Rəyasət Heyətinin iclası keçirilmişdir. Təşkilati inkişafa aid olan 2 məsələ - "AzQAC əməkdaşlarının və könüllülərinin Təhlükəsizlik Qaydaları" və "AzQAC İnformasiya, Kommunikasiya və Sosial Media" siyasətləri Rəyasət Heyəti tərəfindən təsdiq olunmuşdur. İclasda həmçinin, 2015-ci il mart ayının 10-da AzQAC 95 illik yubileyinin təntənəli şəkildə qeyd olunması da qərara alınmış, mqvafiq komissiya yaraılmışdır.
- 2014-cü il 14-18 aprel tarixlərində Gəncə şəhərində BQXK-nin Bərdə Yarım-Nümayəndəliyi tərəfindən AzQAC-ın Gəncə Regional Mərkəzi ilə birlikdə İqtisadi Təhlükəsizlik layihəsi çərçivəsində İlkin Qiymətləndirmə təlimatı təşkil olunmuşdur. Təlimatın əsas məqsədi qiymətlindirmənin məzmununun izahı, qiymətləndirmə prosessinin qaydaları, texniki alətlərin təqdimatıdır. Təlimatda AzQAC-ın Regional Mərkəz və Yerli Bölmələr üzrə iş şöbəsinin müdiri də iştirak etmişdir. Təlimin sonunda bütün iştirakçılara Sertifikatlar təqdim olunmuşdur;
- 2014-cü il iyulun 4-də AzQAC-ın Regional Mərkəzlər və Yerli Bölmələr üzrə iş şöbəsinin təşkilatçılığı ilə Bakı Regional Mərkəzində rayon bölmə sədrlərinə Beynəlxalq Hərəkat haqqında seminar keçirilmişdir. Seminar AzQAC-ın İcraçı Katib Bayram Vəliyev tərəfindən təqdim olunmuşdur;
- Cari ildə Bakı RM-nin Nəsimi, Nizami və Yasamal rayon bölmələrində İcraçı Katib Bayram Vəliyev, İdarə Rəisi-Vitse-Prezident Əziz Qocayev, Regional Mərkəzlər və Rayon Bölmələri üzrə iş şöbəsi tərəfindən sədrlərin bilik və bacarıqları üzrə yoxlamalar təşkil olunmuşdur. Sədrlərə işin düzgün qurulmasına dair bir çox istiqamətlər üzrə tapşırıqlar verilmişdir;
- 2014-cü il dekabrın 3-də Saatlı rayon bölməsinin təşəbbüsü və təşkilatçılığı ilə "Humanitar məqsədlər üçün AzQAC Bölmələrinə maliyyə vəsaitlərinin cəlb edilməsi (Fundraising anlayışı)" mövzusunda seminar keçirilmişdir. Seminarda İdarə Rəisi-Vitse-Prezident Əziz Qocayev, Regional Mərkəz və Yerli Bölmələr üzrə iş şöbəsinin, Fondların Artırılması və Gəlirgətirmə şöbəsinin müdirləri və 15 rayon/şəhər bölmə sədrləri iştirak etmişlər. Seminarda Fandreyzinqin və gəlirgətirmə mənbələrinin rayon və şəhər bölmələrində inkişaf etdirilməsi, gəlirlərin əldə olunması üzrə təcrübə və fikir mübadiləsi aparılmışdır;
- 2014-cü il ərzində təşkilat idarəsi rüblər üzrə Regional Mərkəz Koordinatorları ilə mütəmadi görüşlər keçirmiş, gündəlik təşkilati məsələləri diqqət mərkəzində saxlmışdır. Yerli bölmələrin maddi-texniki bazasının gücləndirilməsi, istiqamətində 55 yerli İcra Hakimiyyəti orqanına müvafiq məktublar və müraciətlər göndərilmişdir;
- 2014-cü il üzrə Baş Qərargaha yerli bölmələr tərəfindən köçürülən maliyyə planının rüblər üzrə təmin olunması təşkil olunmuşdur;

- Cari il ərzində rayon, şəhər bölmələri üçün masaüstü təqvimlər, standart qapı lövhələri, döşlük nişanları, Qızıl Aypara loqolu maykalar, vizit kartları hazırlanmış, məlumat kitabçası yenilənmişdir.

## Gənclər və Könüllülər

**Ümumi məqsəd:**

AzQAC gənclər və könüllülərin cəlbolunma idarəetmə sisteminin inkişaf etdirilməsi və bununla sosial cəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyacı olan əhaliyə könüllü xidmətin səmərəliliyinin artırılması.

2014-cü ildə Beynəlxalq Federasiya tərəfindən ilin şüari "Gənclər fəaliyyətdədir" olmuşdur. Bu şüarla kütləvi aksiyalar, kampaniyalar, dəyirmi masalar, treyninqlər, kurslar və s. tədbirlər keçirilməsinə yanvar ayından start verilmişdir.

*Küçə və yollarda təhlükəsiz davranış vərdişlərinin təbliği*

AzQAC-ın 2011-2015-ci illər strategiyasına əsaslanaraq küçə və yollarda təhlükəsiz davranış vərdişlərini təbliğ etməklə əhali arasında "Piyadaların təhlükəsizliyi naminə" adlı təbliğat yönümlü tədbirlərin həyata keçirilməsi ilə əlaqədar il ərzində maarifləndirmə işləri aparılmışdır. Məhz bu strategiyaya əsaslanaraq AzQAC TRACECA 2 (Avropa, Qafqaz və Mərkəzi Asiya Nəqliyyat Koridoru) Yol Təhlükəsizliyi adlı layihənin 2-ci mərhələsinə Beynəlxalq Federasiya ilə birlikdə qoşulmuşdur. Bu layihə çərçivəsində bir sıra tədbir və eyni zamanda bu sahədə yaxından iştirak edən və aidiyyatı olan nazirliklər, dövlət strukturları, vətəndaş cəmiyyəti ilə əməkdaşlıq nəzərdə tutulur.

***Digər fəaliyyətlər***

- 02 fevral "Gənclər günü" münasibətilə ilə AzQAC Gənclər Komitəsi, Gənclər və Könüllülər şöbəsinin birgə təşkilatçılığı ilə Baş Qərargahda fəal gənclər üçün dəyirmi masa təşkil olunmuşdur. Tədbir zamanı gənclərlə AzQAC-da həyata keçirilən humanitar fəaliyyətlərlə əlaqəli müxtəlif mövzularda debatlar aparılmışdır;
- 02 fevral "Gənclər günü" münasibətilə AzQAC Sumqayıt şəhər bölməsi də öz gənc könüllüləri üçün əyləncəli proqram təşkil etmişdir. Proqramda Sumqayıt şəhər bölməsinin gəncləri və könüllüləri tərəfindən həyata keçirilən fəaliyyətlərin təqdimatı olmuşdur. Gənclər tərəfindən intellektual yarışma təşkil olunmuş, fərqlənən gənc könüllülərə hədiyyələr təqdim olunmuşdur;
- AzQAC Gənclər Komitəsi, Gənclər və Könüllülər şöbəsinin birgə təşkilatçılığı ilə Novruz bayramı münasibətilə 2 tədbir həyata keçirilmişdir:
  -Gənc Tamaşaçılar teatrında sosial cəhətdən zəif olan ailələrdən ibarət olan 200 uşaq üçün tamaşa təşkil olunmuşdur;
  -Talassemiya mərkəzində qan azlığından əziyyət çəkən uşaqlar üçün xəstəxanada tədbir təşkil olunmuşdur. Tədbirdə ümumilikdə, 70 uşaq 10 gənc könüllü iştirak etmişdir. Tədbirdə gənc könüllülər tərəfindən uşaqlar üçün müxtəlif nağıl səhnəcikləri hazırlanmış və konsert proqramı təqdim olunmuşdur. Uşaqların şiməsı feysart ilə bəzədilmişdir. Uşaqlar üçün McDonalds tərəfindən hədiyyələr verilmişdir;
- AzQAC-ın yaranma günü ilə əlaqədar Azərbaycan Dövlət Pedaqoji Universitetdə dəyirmi masa təşkil olunmuş, gənclərin bugünki problemləri, gələcək məqsədləri və digər məsələlər sahəsində bir neçə qrup çərçivəsində müzakirələr aparıldıqdan sonra qruplar tərəfindən təqdimatlar olmuşdur. Eyni zamanda Universitetdə gənclər arasında qanvermə aksiyası da təşkil olunmuşdur;
- 08 may "Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günü" ilə əlaqədar İsmayıllı rayonunda tədbir keçirilmişdir. Tədbirdə uşaqlar tərəfindən fövqəladə hallara, ilk yardıma həsr olunmuş müxtəlif səhnəciklər göstərilmiş, konsert proqramı təşkil olunmuşdur. Sonda tədbirdə iştirak edən bütün məktəblilərə həvəsləndirici hədiyyələr təqdim olunmuşdur;

- 1 iyun “Uşaqların Beynəlxalq Müdafiəsi günü” münasibətilə PakDad restoranında fiziki cəhətdən zəif olan uşaqlar üçün tədbir keçirilmişdir. Orada uşaqlara yemək süfrəsi təşkil olunmuş, hədiyyələr təqdim olunmuşdur. Uşaqların simaları feysart ilə bəzədilmişdir;
- İyul ayında Müqəddəs “Ramazan bayramı” münasibətilə AzQAC Gənclər və Könüllülər şöbəsinin daimi donor tərəfdaşımız olan Pakdad restoranlar şəbəkəsinin dəstəyi ilə Nərimanov, Nizami rayonlarında, Sumqayıt şəhərində 50 evdə yaşayan kimsəsiz yataq xəstəsinə gənc könüllülər vasitəsilə ərzaq bağlaması hədiyyə edilmişdir;
- Avqust ayında 6 gənc könüllü və AzQAC Gənclər Komitəsinin sədri Şərq İqlim Forumu proqramı çərçivəsində Gürcüstanda keçirilən gənc könüllülər üçün təhsil yönümlü yay istirahət düşərgəsində iştirak etmişlər;
- 1 dekabr “Ümumdunya QİÇS-lə mübarizə günü” ilə əlaqədar QİÇS Mərkəzi ilə birgə Neft Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Sumqayıt Dövlət Universitetində gənclər arasında QİÇS-ə qarşı qan testinin nümunələri götürülmüşdür. Həmin testdə 700 gənc iştirak etmişdi;
- 5 dekabr “Ümumdünya Könüllülər Günü” münasibətilə AzQAC Gənclər Komitəsi və Gənclər və Könüllülər şöbəsinin birgə təşkilatçılığı ilə 2 tədbir həyata keçirilmişdir:
  -Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin tabeçiliyində fəaliyyət göstərən Mərkəzi Qan Bankında könüllü qanvermə aksiyası təşkil olunmuşdur. Tədbirdə Baş Qərargahın əməkdaşları, Milli Cəmiyyətin Bakı şəhərində yerləşən rayon bölmələrinin əməkdaşları və könüllüləri, Qan Donorları Assosiasiyasının könüllüləri iştirak etmişlər. Toplanılan qanlar qan azlığından əziyyət çəkən insanlar üçün təmənnasız istifadəyə yönəldilmişdir;
  -Azərbaycanda yerləşən uşaq yaradıcılıq mərkəzlərində könüllü qan donorluğu ilə əlaqədar rəsm müsabiqəsi elan olunmuşdur. Çəkilən şəkillərin sərgisi Bakı şəhərinin ən böyük əyləncə mərkəzlərindən biri olan “Metropark”da nümayiş etdirilmişdir. Tədbir musiqili əyləncəli proqramla davam etdirilmiş və qalib gələnlərə hədiyyələr təqdim olunmuşdur. Bütün tədbirlər televiziya kanalları tərəfindən işıqlandırılmışdır;
- AzQAC-ın Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində sərhədyanı bölgələrdə həyata keçirilən fəaliyyətlərin rəngarəngliyi o bölgələrdə gənclərin asudə vaxtının səmərəli təşkili üçün Gənclər Mərkəzinin yaradılması ilə daha da zəngiləşir. 2014-cü ildə AzQAC Qazax rayon bölməsinin nəzdində növbəti Gənclər Mərkəzi yaradılmışdır. Qeyd edək ki, Gənclər Mərkəzləri hələ 2005-ci ildən BQXK-nin maliyyə dəstəyi, AzQAC-nin təşkilatçılığı ilə Silaahlara Qarşı Mübarizə proqramı çərçivəsində Milli Cəmiyyətin cəbhə xəttinə yaxın ərazilərdə fəaliyyət göstərən rayon bölmələrinin nəzdində yaradılır. Bu Gənclər Mərkəzlərində şəhid və aztəminatlı ailələr, mina və digər silah qurbanlarının uşaqları təmannasız surətdə təşkil olunmuş kompüter və ingilis dili kurslarına cəlb olunurlar. *Hazırda AzQAC-ın belə Gənclər Mərkəzləri Bərdə, Füzuli, Ağdam, Tərtər, Gədəbəy, Şəmkir, Ağstafa, Gəncə, Goranboy, Ağcabədi və Qazaxd fəaliyyət göstərirlər. Gənclər Mərkəzləri müasir kompüter və mebel avdanlıqları ilə təchiz olunmuşdur və bir otaqdan ibarətdir. Gənclərin gün ərzində bu mərkəzlərdə giriş-çıxışı sərbəstdir.*

*Təlimlər:*

- 2014-cü il ərzində AzQAC Gənclər Komitəsi, Gənclər və Könüllülər şöbəsinin birgə təşkilatçılığı ilə ümumilikdə 700 gənc könüllüyə Milli Cəmiyyətin Yayım sektoru tərəfindən modul treyninq kursu (Beynəlxalq Hərəkat haqqında) keçirilmişdir. AzQAC-ın Bakı, Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad, Gəncə Regional Mərkəzlərinin 80 gənc könüllüsü isə modul treyninqlə əlaqədar təlimatçı kimi hazırlanmışdır;
- AzQAC-ın 7 Regional Mərkəzinin gənclərlə iş üzrə koordinatorları icma proqramı çərçivəsində fəaliyyət göstərən gənc könüllülərə, rayon və şəhər bölmələrinin gənclər üzrə təlimatçıları və könüllülər üçün ümümilikdə 90 nəfərə lider treyninq kursları keçirmişlər;

- Cari ildə AzQAC-ın Bakı, Sumqayıt, Lənkəran, Gəncə, Mingəçevir Regional Mərkəzlərinin uşaq evlərində fəaliyyət göstərən 40 nəfər gənc könüllüsü üçün sosial iş treyninqi keçirilmişdir.

## İqtisadi təhlükəsizlik

**Məqsəd:**

Cəbhə bölgəsində yaşayan icmalarda müharibənin insanlara vurduğu zərərin azaldılması üçün iqdsadi təhlükəsizliyi təmin etmək.

**Fəaliyyətlər:**

2014-cü ildə AzQAC BQXK-nın maliyyə dəstəyi ilə cəbhə xəttinə yaxın kəndlərdə müharibənin vurduğu zərər nətcəsində sonradan sosial-iqtisadi cəhətdən zəifləmiş icmalarda "İqtisadi Təhlükəsizlik" layihəsini davam etdirmişdir. Layihə çərçivəsində cari ildə Ağdam, Tovuz, Daşkəsən və qismən Tərtər rayonlarından ümumilikdə 7 kənddə əhalinin sosial-iqtisadi durumunun gücləndirilməsi üzrə fəaliyyətlər həyata keçirilmişdir.

Layihə çərçivəsində ehtyaclı ailələrin və icmaların sosial durumu qiymətləndirilərək onların öz istək və bacarıqlarına görə müvafiq çərçivədə yardımlarla (nağd pul vəsaiti, icma təşəbbüsləri) təmin olunmuşlar. Layihə çərçivəsində həyata keçirilən və insanlara edilən yardım haqqında məlumat aşağıdakılardır:

| Rayonlar | Kəndlər | Nağd pul alanların sayı (ailəyə 1100 AzN) | İcma layihələrində Bəhrələnən ailələrin sayı |
|---|---|---|---|
| Ağdam | Sarıcalı | 128 | 170 |
| | Şüküraǧalı | 35 | |
| | Əhmədağalı | | 131 |
| Tovuz | Koxanəbi | 22 | |
| | Ağdam | 77 | |
| Daşkəsən | Alaxançallı | 22 | |
| | Zilvan | 2 | |
| Tərtər | Həsənqaya | | 27 |
| Cəmi : | | 286 | 328 |

Qeyd etmək lazımdır ki, "İqtisadi Təhlükəsizlik" layihəsi çərçivəsində 2014-cü ildə AzQAC-nin Daşkəsən rayon bölməsinə yeni avtonəqliyyat vasitəsi, kompyuter avadanlıqları və s. təchiz olunmuşdur.

## "Fandreyzinq" (fondların artırılması) və gəlir-gətirmə

**Məqsəd:**

AzQAC-ın maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələrinin artırılması.

**Fəaliyyət:**

- İl ərzində şöbənin əsas fəaliyyəti kimi AzQAC-nin maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələri artırılmış, ianələrin toplanması işi yerinə yetirlimiş, Cəmiyyətin Strateji Planına uyğun olaraq müxtəlif donorlarla əməkdaşlıq qurulmuş, gəlir mənbələri şaxələndirilmiş, mövcud olan işgüzar əlaqələr inkişaf etdirilmişdir. Bu məqsədlə şöbə tərəfindən bir sıra şirkət, bank, və s. obyektlərin məsul şəxsləri ilə işgüzar

görüşlər keçirilmişdir. Həmin görüşlərdə AzQAC-nin humanitar missiyasına uyğun olaraq Cəmiyyətlə mümkün ola biləcək əməkdaşlıq sahələri müzakirə edilmişdir;

- Cari il ərzində Bakı şəhərində fəaliyyət göstərən müxtəlif ticarət, iaşə obyektləri ilə razılıq əldə olunaraq həmin yerlərdə humanitar fəaliyyətlərə maliyyə toplamaq məqsədilə müvafiq qaydada 50 ədəd yeni ianə qutusu yerləşdirilmişdir. İl ərzində Bakı şəhərində yerləşdirilən ianə qutularından gələn gəlir toplanaraq müvafiq qaydada AzQAC-nin humanitar fəaliyyətləri üçün mühasibatlığa mədaxil edilmişdir. *Qızıl Aypara loqolu ianə qutularının yerlərdə yerləşdirilməsinin əsas məqsədi toplanan vəsaitlər hesabına aztəminatlı insanlara, müalicəyə ehtiyacı olanlara, fövqəladə hallar və təbii fəalkətlər zamanı zərər çəkmişlərə, tənha qocalara, kimsəsizlərə müvafiq yardımlar etməkdir;*
- Türkiyənin Manisa vilayətinin Soma kəndində kömür mədənində baş vermiş faciə nəticəsində zərər çəkmişlərin ailələrinə yardım məqsədilə AzQAC tərəfindən dəstək məqsədilə "Fundraising" (fond toplama) kampaniyası təşkil olunmuşdur. Somaya dəstək kampaniyasında 40.443 ABŞ dolları toplanılaraq Türk Kızıl Ayına təqdim olunmuşdur;
- İl ərzində Ukraynada baş verən hərbi münaqişələrdən zərər çəkən insanlara dəstək məqsədilə Beynəlxalq Federasiyanın yardım müraciətinə qoşulan AzQAC ianə qutularından 1 dəfəlik toplanan maliyyə vəsaitini - 5800 ABŞ dollarını – Ukrayna tərəfinə təqdim edilmişdir;
- Cari ilin fevral ayında AzQAC-ın "Fundraising" və Gəlirgətirmə şöbəsinin razılaşması əsasında Milli Cəmiyyət donor olan "12 MAY" şirkəti (şirkətə aid restoranlar şəbəkəsi və s. iaşə obyektləri var) arasında humanitar fəaliyyətlərə donor dəstəyinin olması üzrə Razılaşmasına Müqaviləsi imzalanmışdır;
- BQXK-nin Azərbaycandakı Nümayəndəliyi ilə 2014-cü ildə Cəmiyyətin "fundraising" sahəsinin inkişafı məqsədilə mütəmadi qaydada görüşlər keçirilmişdir. BQXK AzQAC-ın bölmə əməkdaşları üçün "Fundraising" və gəlirgətirmə üzrə xüsusi seminarın keçirilməsi və müəyyən sayda ianə qutularının istehsalına dəstək olmuşdur;
- "Fundraising" və gəlirgətirmə fəaliyyətinin müvafiq qaydada həyata keçirilməsi üçün şöbədə lazımi məlumat bazası yaradılmış, müvafiq norma və standartlar təkmilləşdirilmişdir;
- Digər inkişaf etmiş ölkələrin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin təcrübəsinə əsaslanaraq və daha operativ qaydada ianələrin toplanılması üçün yeni layihə hazırlanmışdır. Layihənin əsas məqsədi ATM-lər (bankomat) vasitəsilə də ianənin mümkün olması və həmin ianələrin insanların ehtiyacına yönəldilməsindən ibarətdir. Bununla əlaqədar müvafiq işgüzar görüşlər keçirilmişdir. Layihənin gələcəkdə həyata keçirilməsi üçün müvafiq işlər görülür;
- Cari ilin noyabr ayında AzQAC-nin İcraçı Katibinin maliyyə, "fundraising" və gəlirgətirmə üzrə müavini Ceyhun Mirzəyev, QAC Nizami rayon bölməsinin sədri Rəna İbrahimova və QAC Sumqayıt şəhər bölməsinin sədri Mətanət Məhərrəmova Beynəlxalq Federasiyanın Avropa Zona ofisi tərəfindən Macarıstanın Budapeşt şəhərində keçirilən Maliyyə Mənbələrinin artırılması üzrə bilik və bacarıqların bölüşməsi seminarında iştirak etmişlər.

*AzQAC-nin 2014-cü il ərzində ianə qutularından toplanan vəsait (bu məlumat şəffaflığı təmin etmək məqsədilə verilir)*

| **Obyektin adı** | 5-20 Fevral | 3-23 Aprel | 11-24 iyun | 19-28 Avgust | 30-12 Noyabr | 20-29 Dekabr | Ümumi məbləğ AZN |
|---|---|---|---|---|---|---|---|
| *Bazar Store* | 685.03 | 661.03 | 602.56 | 667.43 | 1034.77 | 726.4 | 4453.85 |
| *Çudo-Peçka* | 809.62 | 911.75 | 714.97 | 493.74 | 772.38 | 539 | 4241.46 |
| *Fresco market*<br>*Səbət market* | 642.94<br>44.46 | 716.83<br>128.96 | 579.53<br>106.33 | 475.21<br>121.24 | 619.6<br>167.33 | 571.8<br>58.80 | 4233.03 |
| *MUM* | 174.42 | 228.35 | 284.21 | 149.80 | 207.17 | 84.50 | 1128.45 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| *Favorit market* | 34.43 | 33.15 | 15.83 | 14.25 | 302.5 | 435.7 | 835.86 |
| *United Colors of Benetton* | 92.06 | 87.07 | 150.77 | 134.7 | 206.5 | 100 | 771.1 |
| *Al Chicken* | 160.71 | 173.27 | 178.46 | 140.18 | 112.60 | ---- | 765.22 |
| *Pak Dad* | 48.10 | 131.69 | 35.09 | 187 | 166.71 | 175 | 743.59 |
| *Bon Appetit* | 107.51 | 113.6 | 175.85 | 53.4 | 18 | 19 | 487.36 |
| *Adidas* | 42.07 | 52.45 | 22.42 | 185.29 | 97.50 | 61 | 460.73 |
| *Az.beyn.bank* | 36.29 | 10.38 | 183.16 | 100.54 | 76.5 | 20 | 426.87 |
| *Happy Land* | 69.52 | 36.41 | 55.25 | 73.80 | 73.20 | 51 | 359.18 |
| *Yedoy* | 35.94 | 44.55 | 49.24 | 61.49 | 72.60 | 46 | 309.82 |
| *ASB bank* | 86.56 | 49.26 | 36.95 | 42.36 | 40.18 | 30 | 285.31 |
| *Colin's* | 44.98 | 29.60 | 30.39 | 99.11 | 61 | ---- | 265.08 |
| *NLT Telekom* | 45.08 | 30 | 101.3 | 9.40 | 44.40 | 10 | 240.18 |
| *Böyük Fırat restoranı* | 86.13 | 26.17 | 36.8 | 22.96 | 67.50 | ---- | 239.56 |
| *İmperator* | ---- | 116.02 | 87.19 | ---- | ---- | ---- | 203.21 |
| *Bebe* | 27.27 | 27.09 | 24.74 | 55.47 | 32 | 32 | 198.57 |
| *Sevimli Dad* | 27.24 | 65.89 | 32.99 | 29.08 | 24.69 | 15 | 194.89 |
| *KFC* | ---- | ---- | ---- | ---- | ---- | 188 | 188 |
| *Sbarro* | 67.79 | 58.79 | 13.06 | 24 | 16.60 | ---- | 180.24 |
| *Pablosky* | 40.50 | 48.92 | 51.67 | 19.96 | 14.50 | ---- | 175.55 |
| *Kotton* | 40.39 | 26.29 | 22.96 | 40.70 | 8.20 | 18 | 156.54 |
| *Brandroom* | 41.43 | 56.5 | 14.89 | 29.81 | 7.60 | 6 | 156.23 |
| *Sisley* | 41.17 | 5.94 | 31.18 | 28.2 | 17 | 12 | 135.49 |
| *Villa Pizza* | ---- | 36.85 | 23.79 | 12 | 24 | 29 | 125.64 |
| *Sarı market* | ---- | 28.81 | 19.73 | 31.08 | 20.80 | 21 | 121.42 |
| *Nike* | 51.13 | ---- | 19.47 | 26.07 | 11.50 | ---- | 108.17 |
| *Days Hotel* | ---- | 36.10 | 18.30 | ---- | 51.60 | ---- | 106 |
| *Mavi* | ---- | ---- | 22.89 | 28.47 | 35.50 | 13 | 99.86 |
| *Pirosmani* | 21.50 | 18.14 | 12.10 | 5.20 | 20.30 | 19 | 96.24 |
| *LİU JO* | 30 | 10.30 | 10.33 | 24.31 | 9.50 | ---- | 84.44 |
| *Puma* | 27.45 | ---- | 19.22 | 25.70 | ---- | 8.80 | 81.17 |
| *BƏM* | 69.80 | ---- | ---- | 7.65 | ---- | ---- | 77.45 |
| *Kids Planet* | 17.35 | 17.53 | 10.35 | 20.90 | 10.50 | ---- | 76.63 |
| *Coast* | 28.35 | 15.19 | ---- | 18.10 | 7.60 | 6 | 75.24 |
| *Preimummart* | ---- | ---- | ---- | ---- | ---- | 75 | 75 |
| *Loft* | 18.35 | 17.04 | 8.55 | 12.65 | ---- | 13 | 69.59 |
| *Kalinka* | 22.74 | 14.31 | 19.58 | ---- | ---- | 12 | 68.63 |
| *Asia* | 8.13 | 12 | 10.71 | 11.76 | 10.20 | 7 | 59.8 |
| *AF Hotel* | ---- | ---- | ---- | 59.50 | ---- | ---- | 59.50 |
| *Ət və Süd məhsulları* | ---- | 29.15 | ---- | 29.48 | ---- | ---- | 58.63 |
| *Cinnabon* | ---- | 10.25 | 14.55 | ---- | ---- | 29 | 53.8 |
| *Game Center* | 14.56 | ---- | 25.15 | 6.60 | ---- | ---- | 46.31 |
| *BMW* | 16.74 | ---- | ---- | 25.30 | ---- | ---- | 42.04 |
| *İstanbul Köftesi* | 29.36 | ---- | 12.20 | ---- | ---- | ---- | 41.56 |
| *Greydes* | ---- | ---- | ---- | ---- | 40 | ---- | 40 |
| *Playlife* | 18.03 | 19.24 | ---- | ---- | ---- | ---- | 37.27 |
| *Best food* | 9.28 | 20.99 | 6.81 | ---- | ---- | ---- | 37.08 |
| *Lider-AS* | ---- | ---- | ---- | ---- | ---- | 37 | 37 |
| *Van Laack* | 10.03 | ---- | 5 | 15.13 | ---- | 6 | 36.16 |
| *Cireybler* | ---- | ---- | ---- | ---- | ---- | 35 | 35 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| *Nine West* | ---- | 16.83 | 9.58 | 8.56 | ---- | ---- | 34.97 |
| *Alvadı market* | 9.69 | 13.31 | 11.60 | ---- | ---- | ---- | 34.6 |
| *QAÇ* | ---- | ---- | ---- | ---- | 33.40 | ---- | 33.40 |
| *Hoqqa* | ---- | 14.88 | 11.20 | 5 | ---- | ---- | 31.08 |
| *Oasis* | 12.38 | 9.01 | ---- | 9.35 | ---- | ---- | 30.74 |
| *Kosmoland* | 27 | ---- | ---- | ---- | ---- | ---- | 27 |
| *Bella2* | 11.30 | ---- | ----- | ----- | 15.43 | ---- | 26.73 |
| *İstiot kafe* | 11.12 | 12.59 | ---- | ---- | ---- | ---- | 23.71 |
| *VVaffle-art* | ---- | ---- | ---- | ---- | ---- | 20 | 20 |
| *Yeni Həyat klinikası* | 16 | ---- | ---- | ---- | ---- | ---- | 16 |
| *Mangal* | 12.83 | ---- | ---- | ---- | ---- | ---- | 12.83 |
| *Kafe Sahil* | ---- | ---- | ---- | ---- | 6.63 | ---- | 6.63 |
| *Maryam Gallery* | 6.62 | ---- | ---- | ---- | ---- | ---- | 6.62 |
| *Sea View Plaza* | 5.40 | ---- | ---- | ---- | ---- | ---- | 5.40 |
| *Kafe Life* | ---- | ---- | ---- | ---- | 3,08 | ---- | 3.08 |

*Cəmi: 23.995 manat*

Aztəminatlı insanlara yardım və dəstək göstərmək məqsədilə yaratdığı şəraitə görə yuxarıda adları çəkilən bütün tərəfdaş qurumlara, eləcə də, Cəmiyyətlə əməkdaşlıq edən hər bir kəsə (fiziki və hüquqi şəxslərə) AzQAC adından təşəkkür edirik.

**Nailiyyətlər:**

50 ədəd yeni ianə qutusunun Bakı şəhərində yerləşdirilməsi;

ATM-lər (bankomatlar) vasitəsilə ianə edilməsinə dair layihə hazırlanması və layihənin həyata keçirilməsi üçün ilkin nəticələrin əldə olunması;

Onlayn internet vasitəsilə ianə edilməsinin təşkili;

BQXK tərəfindən AzQAC-ın fandreyzinq və gəlirgətirmə sahəsinin inkişafına diqqətin artmasına nail olmaq;

Fandreyzinq və gəlir-gətirmə fəaliyyətinin müvafiq qaydada həyata keçirilməsi üçün məlumat bazasının yaradılması, müvafiq norma və standartların təkmilləşdirilməsi;

1 donor şirkətlə razılaşma müqaviləsinin imzalanması.

**Problemlər:**

1. Maarifləndirmə işləri üçün çap vəsaitlərinin nəşrinə maliyyə vəsaitinin olmaması. (toplanılan maliyyə vəsaitləri birmənalı olaraq ehtiyaclı insanlara xərclənir)
2. İanə qutularının hazırlanması üçün kifayət qədər maliyyə vəsaitinin olmaması.

**İcmaların İnkişafı**

**Məqsəd:**

Sosial və sağlamlıq faktorlarını nəzərə almaqla icmalarda imkansızlığın azaldılmasına nail olmaq.

**Fəaliyyətlər:**

- 2014-cü ildə AzQAC-nin İcmaların İnkişafı Sektoru “2011-2015-ci il Strateji Plan”a əsasən müntəzəm surətdə fəaliyyət planlarını hazırlayaraq Cəmiyyətin Katibliyinə təqdim etmişdir. Fəaliyyət istiqaməti olaraq icmaların İnkişafı Sektoru Azərbaycan Respublikası ərazisində ehtiyaclı icmaların araşdırılması, tapılması və onların sosial rifahının yüksəldilməsi istiqamətində tədbirlər görmüşdür;
- Bu istiqamətdə tədbirlərin təşkil edilməsi üçün sektor tərəfindən mütəmadi olaraq donorlarla görüşlər keçirilmişdir. Bu donorlar istər yerli, istərsə də xarici donorlar

olmuşdur. Sektor özünün əməkdaşlıq etdiyi ənənəvi donorları ilə də bir sıra layihənin həyata keçirilməsi ilə bağlı məsələləri müzakirə etmişdir;

- Həmçinin Katiblik tərəfindən sektora yönəldilən təşkilatların (Məs: TAG Beynəlxalq İnkişaf Təşkilatı və s.) vasitəsilə reallaşdırmaq istədikləri layihələri - "Yağış suyunun içməli suya çevrilməsi", "İcmalarda suyun qızların gigiyenik təmizliyindəki roluna nail olmaq" donorla müzakirə olunmuşdur. Həmçinin layihələrlə bağlı donora təkliflər göndərilmiş və rəylər bildirilmişdir. Bu layihələrlə bağlı donorun son mövqeyi gözlənilməkdədir;
- 2014-cü ildə İcmaların İnkişafı sektorunun təşkilatçılığı ilə "Müqəddəs Qurban Bayramı" münasibətilə tənha qocalar icmasına ediləcək yardımlar ilə əlaqədar aparılan danışıqlar nəticəsində "Səba broyler" şirkəti tərəfindən 8 ədəd ərzaq bağlaması 8 tənha qocaya təqdim olunmuşdur;
- 2014-cü il dekabrın 5-də "Beynəlxalq Könüllülər günü" münasibətilə Bakıda yerləşən Qan Bankında qanvermə aksiyası keçirilmişdir. Qan azlığından əziyyət çəkənlər də ehtiyaclı icma olduqları İcmaların İnkişafı Sektorunun olaraq belə bir tədbirin ərsəyə gətirməsi təqdirə layiqdir. Sektor bu sahədə Gənclər və Könüllülər şöbəsi ilə əməkdaşlıq edilmişdir;
- Katibliyə sektor tərəfindən rüblük olaraq verilmiş fəaliyyət planına əsasən hesabatlar hazırlanmış və təqdim edilmişdir.

## Humanitar yardım

**Məqsəd:**

AzQAC-ın imkanlarını və insanlığın gücünü səfərbər edərək, müharibələr nəticəsində zərər çəkən insanlara, yardıma ehtiyacı olan ahıl, tənha-xəstə, qaçqın və məcburi köçkün ailələrə, aztəminatlı ailələrə, təbii və texnogen fəlakətlərdən zərər çəkmiş insanlara müxtəlif formada maddi və mənəvi köməklik göstərmək, humanitar dəyərləri rəhbər tutaraq insanlar arasında mərhəmət və xeyirxahlıq hisslərini aşılamaq.

**Fəaliyyət:**

- AzQAC Katibliyinə, Regional Mərkəzlərə və yerli bölmələrə daxil olan çox sayda ərizə, telefon zəngi və müxtəlif səpkili müraciətlərə Milli Cəmiyyətin Humanitar Yardım şöbəsi humanist prinsipləri rəhbər tutaraq fərdi qaydada baxmışdır. Hər bir müraciət barəsində müvafiq qərar qəbul olunmuş və imkan daxilində humanitar yardımla təmin olunmuşdur;
- Hər həftənin 3-cü günü AzQAC-ın Ali rəhbərliyinin və Katibliyin Humanitar Yardım şöbəsinin əməkdaşının iştirakı ilə Bakı Regional Mərkəzində yardıma ehtiyacı olan aztəminatlı insanların qəbulu təşkil edilmişdir. Rayon bölmələrində də bu cür qəbulların keçirilməsi artıq bir çox yerli bölmələrin fəaliyyətində öz əksini tapmışdır;
- İl ərzində Cəmiyyətin missiyasına aidiyyatı olan insanların rayon bölmələri üzrə sayının dəqiqləşdirilməsi və qeydiyyat siyahılarının tərtibi işi davam etdirilmişdir. Aztəminatlıların qeydiyyata alınması yerli bölmələrin özləri tərəfindən müvafiq kateqoriyalara uyğun müəyyənləşdilmişdir;
- İl ərzində AzQAC-ın "Fundraising" və Gəlirgətirmə şöbəsinin fəaliyyətləri əsasında Milli Cəmiyyətə daxil olan ianələrdən formalaşan maliyyə ilə Humanitar Yardım şöbəsi tərəfindən 150 qutu (150 ailəlik) ərzaq bağlaması hazırlanaraq Mərkəzi Anbara təhvil verilmişdir. Bu fəaliyyət AzQAC-ın 2011-2015-ci illər üçün olan Strateji Planına uyğun şəkildə həyata keçirilir.

*"Mərhəmət sorağında" layihəsi*

Bakı şəhərində yaşayan və qeydiyyatda olan bir qrup daha çox yardıma və tibbi–sosial qayğıya ehtiyacı olan insanın rifahını qismən də olsa yaxşılaşdırmaq məqsədi ilə AzQAC Prezidenti Dr. Novruz Aslanovun təşəbbüsü və maliyyə dəstəyi 01 avqust 2008-ci il tarixindən başlanmış "Mərhəmət Sorağında" layihəsi 2014-cü ildə də davam etdirilmişdir.

- "Mərhəmət Sorağında" layihəsinin hesabat ilində Bakı Regional Mərkəzinin strukturuna daxil olan 11 rayon bölməsi üzrə layihə çərçivəsində Milli Cəmiyyətin Prezidentinin təşəbbüsünə qoşulmuş rayon bölmə sədrlərinin də maliyyə dəstəyi - şəxsi vəsaitləri ilə edilən yardımlar da nəzərə alınmaqla ümumilikdə 48 insana hər ay 456 manatlıq zəruri ərzaq və tibbi – sosial xidmət üzrə yardım göstərilmişdir;
- 2014-cü il ərzində layihə çərçivəsində 567 nəfər qeydiyyatda olan aztəminatlıya 5.409 manat dəyərində zəruri ərzaq məhsulları humanitar yardım kimi təqdim olunmuşdur;
- Ümimilikdə layihənin əvvəlindən ötən müddət ərzində (avqust 2008-dekabr 2014) layihə ilə əhatə olunmuş 3862 nəfər aztəminatlı insana 37.000 manat məbləğində zəruri ərzaqla yardım edilmiş, könüllü olaraq 6 növ müxtəlif tibbi–sosial xidmətlər (qan təzyiqinin ölçülməsi, xəstəyə iynənin vurulması, təmizlik işlərinin aparılması, dərmanla kömək və s.) xidmət göstərilmişdir.

*Əməkdaşlıq və humanitar tədbirlər:*

- AzQAC-ın Humanitar Yardım şöbəsi respublikada fəaliyyət göstərən müxtəlif beynəlxalq, yerli humanitar və özəl təşkilatlarla (şirkətlərlə) əməkdaşlıq üzrə müxtəlif səviyyədə işlər aparmışdır;
  Hesabat ilində AzQAC-la səmərəli əməkdaşlıq edən İran Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasının (Nümayəndəliyinin) işi xüsusi qeyd olunmalıdır. Bu müddət ərzində İran Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasında 414 nəfər aztəminatlı xəstənin təmənnasız tibbi müayinədən keçməsi üçün köməklik göstərilmişdir. Təmənnasız göstərilmiş tibbi müayinənin dəyəri 24.840 manat təşkil etmişdir;
- AzQAC-ın daim diqqətində olan insanların iştirakı ilə müxtəlif xeyriyyə tədbirləri və görüşlər təşkil olunmuşdur. Hesabat dövründə AzQAC-ın yerli bölmələri tərəfindən də ümumilikdə belə humanitar–xeyriyyə tədbirləri həyata keçirilmişdir. Bu tədbirlərdə yüzlərlə aztəminatlı insanlar, valideyn qayğısından məhrum olmuş uşaqlar iştirak etmiş, onlara müxtəlif yardımlar paylanılmış, onlar üçün süfrələr açılmış, əyləncəli proqramlar təşkil edilmişdir;
- Qarşılıqlı əməkdaşlıq çərçivəsində AzQAC-ın rəsmi donor tərəfdaşlarından olan "12 MAY" şirkəti, şəxsən şirkətin rəhbəri - Azərbaycan Sambo Federasiyasının Vitse-Prezidenti Hacı Səbuhi Rəcəbin təşəbbüsü və dəstəyi ilə xalqımız üçün əziz olan bayram günlərində tənha və kimsəsiz qocalar üçün humanitar yardımlar təqdim olunmuşdur (xüsusilə ərzaq bağlamaları).

**Nailiyyətlər:**

Hər il olduğu kimi 2014-cü ildə də humanitar yardım fəaliyyətlərində əvvəlki illərə nisbətən keyfiyyətcə irəliləyiş əldə olunmuşdur;

AzQAC-ın humanitar fəaliyyətləri üçün istifadə olunan maliyyə vəsaitinin daxil olması üzrə mənbələrin sayı müxtəlifləşərək çoxalmışdır;

AzQAC–ın şəhər və rayon bölmələrinin "Fundraising" və Gəlirgətirmə üzrə bilik və bacarıqlarının artırılması hesabına humanitar yardımlar üçün daha çox maliyyə vəsaitinin formalaşdırılması müşahidə olunmuşdur;

**Problemlər:**

Maliyyə vəsaitinin kifayət qədər olmamasına görə humanitar yardım məqsədilə lazım olan ərzaq, ləvazimat və avadanlıqların AzQAC-ın Strateji Planında nəzərdə tutulan miqdarda və sayda formalaşdırılmasına hələ də nail olunmamışdır.

## Miqrasiya və miqrantlar diqqət mərkəzində

**Ümumi məlumat**

Dünyada baş verən mövcud ictimai-siyasi təlatümlərin səbəb olduğu fırtınalar birinci növbədə insanlara və onların həyat şəraitinə zərbə vurur. Onlar normal həyat ritmini itirir və məcburiyyət qarşısında təhlükəsizlik və qazanc əldə etmək üçün doğma vətənlərini tərk etməli olurlar. Üz tutduqları yerlərdə cəmiyyətə inteqrasiya olmaq o qədər də asan olmur, müxtəlif problemlərlə üzləşirlər və nə edəcəklərini, hara müraciət edəcəklərini bilmirlər. Beləliklə də, çox asanlıqla tənzimlənməyən miqrasiyanın riskləri ilə üz-üzə qalırlar. Miqrasiya həm yeni imkanlar, həm də müxtəlif çətinliklər gətirə bilər. Məlumatlı və tənzimlənən miqrasiya inkişafa və rifaha səbəb olduğu halda, məlumatsız və tənzimlənməyən miqrasiya təhlükəsizlik, fiziki və psixoloji durumu risk altında qoya bilər.

**Məqsəd**

Ölkəyə təşrif buyuran miqrantların, həmçinin, qaçqın və məcburi köçkünlərin normal şəraitdə yaşaması üçün onların bütün yerli və beynəlxalq hüquqlarla təmin olunmasında vəkillik etmək, ölkədə yaşayan miqrantlara daim diqqət və qayğı göstərərək əsas ehtiyaclarını öyrənmək və imkan daxilində bu ehtiyacları maddi və mənəvi cəhətdən ödəmək, hər hansı bir problem ucbatından ümid yeri olaraq AzQAC-a müraciət edəm miqrantların problemlərini dinləyərək özünün hörmətli humanitar təşkilat nüfuzundan istifadə edərək müraciət edənləri aidiyyatı qaydada tərəfdaş qurumlar olan Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti, Beynəlxalq Miqrasiya Təşkilatı və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı ilə koordinasiya etmək. AzQAC-ın Miqrasiya şöbəsi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Nizamnaməvi Görüşlərində, Regional Konfranslarda miqrantlarla əlaqədar qəbul olunmuş qətnamələrin, qərarların icrasını ölkə ərazisində həyata keçirir.

**Fəaliyyətlər**

- AzQAC-ın Miqrasiya şöbəsi tərəfindən Azərbaycanda müvəqqəti yaşayan əcnəbilər və miqrant statuslu adamlar üçün pulsuz təşkil olunan Azərbaycan dili kursları 2014-cü ildə də müvəffəqiyyətlə davam etdirilmişdir. 2014-cü il yanvar-sentyabr aylarında (9 ay) kursu bitirən 32 miqrant müvafiq sertifikatlarla təmin olunmuşdur. 2014-cü ilin oktyabr ayından növbəti kurs öz işinə başlamışdır. İlkin olaraq 25 miqrant kursa yazılmışdır. Azərbaycana pənah gətirən miqrant ailələri əsasən Suriya, Əfqanıstan, İraq, İran, Pakistan, Nepal və s.-dir. Bu kurs əvvəlki qaydada AzQAC-ın tərəfdaşlarından olan ən çox miqrant ailələrini öz əhatəsində birləşdirən "HAYAT" Beynəlxalq Humanitar Təşkilatının ofisində həyata keçirilir;
- İl ərzində Azərbaycan dili kursunda iştirak edən miqrantlara AzQAC-ın İlk Yardım sektoru tərəfindən 3 dəfə ödənişsiz İlk Yardım təlimi keçirilmişdir;
- AzQAC-ın Miqrasiya şöbəsi "Novruz" Bayramı münasibətilə işğalda olan Ağdam rayonundan 20 məcburi köçkün ailəsinə və ölkəyə pənah gətirmiş 30 miqrant ailəsinə ərzaq bağlamaları bayram sovqatı kimi təqdim olunmuşdur. Cari ilin "Ramazan" bayramında isə AzQAC-ın Miqrasiya şöbəsi ölkəyə pənah gətirən 46 miqrant ailəsinə bayram sovqatı olaraq ərzaq bağlamaları təqdim etmişdir;
- 2014-cü ildə AzQAC və Beynəlxalq Miqrasiya Təşkilatının birgə əməkdaşlığı nəticəsində Milli Cəmiyyətin bütün rayon/şəhər bölmələrində Miqrasiya İnformasiya Məntəqələri də yaradılmışdır. Məntəqələr əhali arasında insan alveri və zorakılığa qarşı maarifləndirmə aparmaq, həmçinin, əhaliyə yerindəcə miqrasiya üzrə lazımi bilik və məlumatların verilməsi məqsədini daşıyır. Beynəlxalq Miqrasiya Təşkilatı və AzQAC Miqrasiya İnformasiya Məntəqələri vasitəsilə əhali arasında maarifləndirici yayım işlərini təşkil etmək məqsədilə, cari ildə 50 000 ədəd informasiya xarakterli broşur çap etdirmişdir. Brouşurlar AzQAC-ın bütün rayon/şəhər bölmələrinə təqdim olunmuşdur. Ölkəmizə pənah gətirən miqrantlar il ərzində AzQAC-ın Miqrasiya İnformasiya Məntəqələrinə ümumilikdə, 6 dəfə müxtəlif problemlərin həlli üçün müraciət etmişlər. Müraciətlərə baxılaraq AzQAC tərəfindən dəstəklənmiş və ya aidiyyatı qaydada Azərbaycan Dövlət Miqrasiya Xidmətinə, Beynəlxalq Miqrasiya Təşkilatına və s.qurumlara əlaqələndirilmişdir:
- Aprel ayının 21-də HAYAT beynəlxalq təşkilatının Qaçqın Qadın və Gənclər Mərkəzində (QQGM) miqrantlara AzQAC-nin Miqrasiya şöbəsinin müdiri Məmməd

Kətənov tərəfindən miqrantlar üçün "Qanunsuz Miqrasiyanın Riskləri" barədə məlumat verilmişdir. Həmçinin, miqrantlara AzQAC-nin yerli bölməsində fəaliyyət göstərən MİM haqqında məlumat verilmişdir:

- 1 iyun "Uşaqların Müdafiəsi" günü münasibətilə AzQAC-ın Miqrasiya şöbəsinin təşkilatçılığı ilə 20-yə yaxın miqrant ailəsindən olan uşaq AFF Hotel İstirahət mərkəzində bir neçə təşkilatın, o cümlədən AzQAC-nin birgə təşkil etdiyi böyük bayram tədbirində iştirak etmişdir.
- Il ərzində AzQAC və Beynəlxalq Miqrasiya Təşkilatı İnsan Alverinə qarşı beynəlxalq kampaniyanın tərkib hissəsi olan "İki Balaca Qız" animasiya filminin Azərbaycan dilinə tərcümə olunaraq geniş kütlə arasında nümayiş etdirilməsi işinə start verilmişlər.

***Miqrantların Azərbaycan cəmiyyətinə inteqrasiyası***

AzQAC-in ölkədə yaşayan miqrantlara qayğı göstərməsi bir ənənə halını almışdır. Bu məqsədlə il ərzində AzQAC Miqrasiya şöbəsi tərəfindən miqrantlar üçün ölkənin tarixi abidələri və muzeyləri ilə tanışlıq gəzintiləri təşkil olunmuşdur. Həmçinin, AzQAC-ın Miqrasiya şöbəsi tərəfindən təşkil olunan Azərbaycan dili kursunda iştirak edən miqrantlar dili daha da təkmilləşdirmək üçün Azərbaycan Akademik Milli Dram və Musiqili Komediya teatrlarına tamaşalara baxışlara dəvət olunmuşlar. Il ərzində Azərbaycan dili kurslarında iştirak edən miqrant müdavimlər ailəliklə dəfələrlə Azərbaycan Akademik Milli Dram və Musiqili Komediya teatrlarına tamaşalara təmannasız biletlərlə təmin olunmuşlar.

**Nailiyyətlər :**

Miqrantlar üçün təşkil olunan Azərbaycan dili kurslarına daha çox miqrantın həvəs göstərməsi :

AzQAC-ın statusunun ölkədə miqrasiya problemləri ilə məşğul olan təşkilatlar sırasında aparıcı qurumlarından biri kimi daha çox tanınması.

**Problemlər :**

Ölkədə yaşayan və gündəlik tələbata ehtiyacı olan miqrant ailələrinin hümanitar yardım ehtiyaclarlnın ödənilməsi üçün AzQAC-ın "Fundraising" (fondun arıtırılması) fəaliyyətlərinə yerli donorlar tərəfindən marağın az olması.

## Silahlara Qarşı Mübarizə

**Məqsəd :**

AzQAC-ın Strateji Planına uyğun olaraq ölkə ərazisində Mina Risklərinin Azadılması, Mina və Partlamamış Hərbi Sursatların partlaması, atəşkəsin pozulması nəticəsində qurbana çevrilən insanlara sosial, humanitar və mənəvi yardımın təmin olunması, mina və PHS hadisələri və qurbanlar haqqında məlumatların toplanması, mina və digər silahlar üzrə maarifləndirilmə işlərinin həyata keçirilməsi, cəbhə xəttinə yaxın ərazilərdə yaşayan icmaların iqtisadi təhlükəsizliyinin təmin olunması üzrə layihələrin həyata keçirilməsi.

**Fəaliyyətlər :**

- AzQAC və BQXK arasında 2014-cü ildə əməkdaşlığı nəzərdə tutan müqaviləyə əsasən Silahlara Qarşı Mübarizə Proqramının fəaliyyət planına uyğun olaraq Qazax, Ağstafa, Tovuz rayonlarında mina qurbanı ailələriniin sosial durumunun qiymətləndirilməsi prosesi həyata keçirilmişdir. Cari ildə AzQAC-nin Silahlara Qarşı Mübarizə proqramı tərəfindən "Mina Partlayışı Zamanı Əlil Olmuş İnsanların Ailələrinə Sosial Dayaq" layihəsi Qazax, Ağstafa və Tovuz rayonlarında həyata keçirilmişdir. Ailələrin yaşayış vəziyyəti və sosial durumu nəzərə alınaraq ən çox ehtiyaclı və dəstəyə ehtiyacı olan 12 ailəyə yardım edilmişdir. Ailələrə iri buynuzlu heyvanlar təqdim olunmuşdur. Bu il yardım edilən

ailələrlə birlikdə ümumilikdə AzQAC mina qurbanlarına yardım strategiyası çərçivəsində 2009-2004-cü illər ərzində 92 mina qurbanı ailəsinə belə yardım etmişdir. AzQAC bu layihə çərçivəsində maliyyə dəstəyi üçün BQXK-nə təşəkkür edir.

• AzQAC və ANAMA (Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik) arasında mövcud olan rəsmi əməkdaşlıq müqaviləsinə əsasən mina hadisələri və qurbanları haqqında məlumatlar aidiyyatı qaydada toplanaraq təqdim edilmişdir. Fevralın 6-da 2014-cü il AzQAC-ın Miqrasiya şöbəsinin müdiri, Silahlara Qarşı Mübarizə proqramının rəhbəri Məmməd Kətanovun təşəbbüsü ilə ANAMA-nın ofisində Mina Üzrə Maarifləndirmə şöbəsinin müdiri Musa Cəlalov və həmin şöbənin əməkdaşı Vaqif Sadıqov görüş keçirilmişdir. Görüşdə AzQAC-ın nümayəndəsi 2005-ci ildən Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində həyata keçirilən proqram və fəaliyyətlər barəsində məlumat vermişdir. ANAMA-nın nümayəndəsi, Musa Cəlalov da öz növbəsində ötən dövr ərzində təmsil etdiyi qurum tərəfindən həyata keçirilən fəaliyyətlər haqqında məlumat vermişdir. O, 2014-cü ildə mina və partlamamış hərbi sursatların partlaması nəticəsində qurbana çevrilmiş insanlar haqqında ətraflı məlumat toplamaq üçün yenilənmiş İMSMA(informasiya Management System of Mine Action- mina hadisələri haqqında informasiyanın idarə olunması) blanklarını AzQAC nümayəndəsinə təqdim etmişdir :

• Cari il ərzində AzQAC tərəfindən bir mina hadisəsi qeydə alınaraq aidiyyatı qaydada məlumat toplanılmışdır: 1977-ci il təvəllüdlü, Qazax rayonun Cəfərli kənd sakini Qarasaqqalov Məmməh vasil oğlu piyadalar əleyhinə minaya düşərək xəsarət almışdır.

• 2014-cü ildə AzQAC-ın Mina Risklərinin Azaldılması konsepsiyası çərçivəsində ənənəvi layihəsi olan uşaqlar üçün “Təhlükəsiz Oyun Meydançaları” Qazax rayonunun cəbhə xəttinə yaxın ərazidə yerləşən Alpout və Ağcabədi rayonunun mina riskləri olan Kəhrəzli kəndində quraşdırılmışdır. Maliyyə dəstəyi Almaniya Qızıl Xaç Cəmiyyəti tərəfindən olmuşdur. *2005-2014-cü illər ərzində ümumilikdə Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Göygöl, Goranboy,Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarından 56 kənddə AzQAC tərəfindən “Təhlükəsiz Oyun Meydançası” layihəsi quraşdırılaraq uşaqların istifadəsinə verilmiş və bununla da uşaqların mina və MPQ (müharibənin partlayıcı qalıqları) ilə rastlaşma risklərinin qarşısı qismən də olsa alınmışdır.*

• *2014-cü ilin dekabr ayında “Bakı Ariva”mehmanxanasında ənənəvi qaydada AzQAC və BQXK birgə olaraq Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Hərəkatının Azərbaycanda “Silahlara Qarşı Mübarizə”istiqamətində həyata kecirdiyi fəaliyyətlərin yekununa dair görüş keçirmişdir. Görüşdə AzQAC-ın Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Göygöl, Goranboy,Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayon və şəhər bölmələrinin sədrləri, Gəncə Regional Mərkəzinin koordinatoru, Sabirabad Regional Mərkəzinin koordinatoru, Naxçıvan MR Komitəsinin sədri, Milli Cəmiyyətin bütün şöbələrinin müdirləri və aparat işçiləri, BQXK nümayəndələri, ANAMA-nın Minalar Üzrə Maarifləndirmə şöbəsinin əməkdaşı və AzCBL (Mina Əleyhinə Azərbaycan Kompaniyası İctimai Birlyinin) rəhbəri iştirak etmişlər. Görüşün məqsədi 2014-cü il ərzində AzQAC tərəfindən silahlara qarşı mübarizə proqramı çərçivəsində Respublika ərazisində həyata keçirilən fəaliyyətlərin yekununa dair hesabatın iştirakçılara təqdimatı, onun müzakirəsi və gələcək fəaliyyətlərin və layihələrin planlaşdırılması, ANAMA mütəxəssis tərəfindən Milli Cəmiyyətin rayon bölmə sədrlərinə İMSMA blankların doldurulması üzrə təqdimat vasitəsilə məşğələsinin keçirilməsi olmuşdur.*

**Nailiyyətlər :**

AzQAC-ın Mina Risklərinin Azaldıması konsepsiyası çərçivəsində həyata keçirilən “Təhlükəsiz Oyun Meydançaları” layihəsi 2015-ci ildə daha 3 kənddə davam etdirilməsi üçün müqavilə imzalanmışdır.

AzQAC-ın Mina Qurbanlarına Yardım konpsepsiyası çərçivəsində həyata keçirilən “Mina Partlayışı Zamanı Əlil Olmuş İnsanların Ailələrinə Sosial Dayaq” layihəsinə 2015-ci ildə maliyyə dəstəyinin təmin olunması üzrə BQXK ilə razılaşma əldə olunmuşdur.

**Problemlər :**
AzQAC-ın rayon və şəhər bölmələri tərəfindən mina hadisələri və qurbanları haqqında tərtib olunmuş yeni İMSMA blanklarının tam dolğun qaydada doldurulmaması.

## İnfrastruktur layihələri

**Məqsəd :**
İnsan yaşayışını təmin edən su, səhiyyə, təhsil və s. bu kimi ən vacib həyat təhlükəsizliyinə dair mövcud olan problemləri həlli üçün müraciətlər əsasında infrastruktur layihələrini qiymətləndirmək və imkanları səfərbər edərək bu probləmlərin həllinə nail olmaq.

**Fəaliyyət:**
Şəmkir rayonunun Qasımalılar, Göyməmmədli və Çənlibel kəndlərində mövcud olan su xəttlərinin yenidən tikilməsinə böyül ehtiyacın mövcud olmasını nəzərə alaraq 2013-cü ildən kənd icması tərəfindən AzQAC-ın Şəmkir rayon bölməsinə müraciət daxil olmuşdur. AzQAC-ın Şəmkir rayon bölməsi tərəfindən kəndlərdə vəziyyətin qiymətləndirilməsi işi təşkil olunmuşdur. Bu problem layihə şəkilində AzQAC tərəfindən formalaşdırılaraq Yaponiyanın Azərbaycandakı səfirliyi tərəfindən həyata keçirilən "Ot Kökləri və İnsan Təhlükəsizliyi" adlı qrant layihəsinə təqdim olunmuşdur. Layihəyə Yaponiya Səfirliyi tərəfindən müsbət dəstək verilmişdir. 2014-cü il mayın 26-da Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı cənab Nazim Veysovun və Şəmkir rayonunu təmsil edən Milli Məclisin Deputatı Məlahət İbrahimqızının iştirakı ilə Yaponiyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri cənab Tsuquo Takhaşi və AzQAC-ın prezidenti, Milli Məclisin Deputatı Dr.Novruz Aslanov arasında qrant müqaviləsi imzanlanmışdır. Layihə AzQAC tərəfindən yüksək səviyyədə icra olunmuşdur. 2014-cü il sentyabrın 26-da Şəmkir rayonunun sözü gedən kəndlərində layihənin rəsmi açılış mərasimi baş tutmuşdur. Layihədə kəndlərin üst hissəsində mövcud olan bulaqlarda dəhnələr quraşdırılmışdır, 2 kənddə ehtiyacları nəzərə alaraq ehtiyat su anbarları tikilmişdir, kəndlərin müxtəlif əl çatan yerlərində 3 ədəd su bulağı quraşdırılmışdır. Dəhnə və ehtiyat su anbarları və su bulaqları arasında yeni boru xətlər çəkilmişdir.

**Nailiyyətləri:**
Layihənin uğurla həyata keçirilməsi və donorun gələcəkdə də bu kimi layihələrdə AzQAC-la birgə fəaliyyət göstərməyə istəyin olması.

**Problemlər:**
Öz missiyasına uyğun olaraq dövlətə humanitar sahədə yardımçı olmaq məqsədilə icmalarda mövcud olan bu kimi infrastruktur layihələrin yerinə yetirilməsi üçün AzQAC-ın öz maliyyə vəsaitinin olmaması.

Axtarış Xidməti

**Məqsəd :**
Bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarını azaltmaq, psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmçinin, bir-birinə qovuşdurmaq.

**Fəaliyyət istiqamətləri:**
- Mütəmadi olaraq ərizəçilərin qəbulu:
- II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı:
- Miqrasiya ilə bağlı axtarış:
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi:
- Sosial problemlərin həlli üçün sənədlərin axtarışı:
- AX-nin fəaliyyəti barədə AzQAC Regional Mərkəz və Rayon/şəhər/sahə bölmələri vasitəsilə yayım:

**KİV ilə əməkdaşlıq**

- 2014-cü ildə Bir sıra KİV-lə birgə əməkdaşlığın davamına dair görüşlər keçirilmişdir.
- Milli Radio Axtarış Xidmətinin Fəaliyyəti barədə məlumatlar verilmişdir.
- Vışka qəzetində AX-nin fəaliyyətini işıqlandıran 2 məqalə çap edilmişdir.

*Dövlət strukturları və Beynəlxalq Təşkilatlarla əməkdaşlıq*

AzQAC-nin 2014-cü ildə birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

- Daxili İşlər Nazirliyi
- Milli Təhlükəsizlik Nazirliyi
- Nazirlər Kabineti nəzdində Dövlət Arxiv İdarəsi
- BQXK
- Bakı Şəhər İcra Hakimiyyəti
- Respublika Prokurorluğu
- Hərbi Komissarlıq
- BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı
- Qaçqın və Məcburi Köçkünlər üzrə Dövlət Komitəsi
- Telefon – məlumat xidməti

*Görüşlər, təlimlər, seminarlar*

- İl ərzində mütəmadi olaraq xidmətin əsas dəstəkçisi BQXK –nin Axtarış üzrə nümayəndələri ilə görüşlər keçirilmişdir.
- Cari il ərzində Axtarış Xidməti "AzQAC-ın Fəlakətlər Zamanı Fəaliyyət Planı"nın hazırlanması üzrə İşçi Qrupunun üzvü kimi bütün iclaslarda və görüşlərdə iştirak etmişdir. AzQAC-ın Axtarış Xidməti il ərzində öz planını tərtib edərək İşçi Qrupunun rəhbərinə təqdim etmişdir.
- İl ərzində 1 dəfə AzQAC-ın cəbhə xəttinə yaxın ərazilərdə və təbii fəlakət riskləri böyük olan ərazilərdə fəaliyyət göstərən rayon bölmə sədrlərinə "Fövqəladə Hallar Zamanı və Sonra Axtarış Xidmtənin fəaliyyəti" mövzusunda treyninq keçirilmişdir.
- Aprel ayında Bakı Slavyan Universitetinin beynəlxalq münasibətlər fakültsinin 30 tələbəsi üçün Axtarış Xidməti fəaliyyəti haqqında seminar keçirilmişdir.
- Dekabr ayında AzQAC-ın Silahlara Qarşı Mübarizə Proqramı çərçivəsində keçirilən iclasda bölmə sədrləri ilə Axtrış Xidmətinin rəhbəri arasında görüş keçirilmişdir.

*Statistik hesabat*

2014-cü il ərzində daxil olmuş sorğular

Açılmış İşlər

Azərbaycana dair - 26

| | |
|---|---|
| Miqrasiyaya dair axtarış | 24 |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 1 |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 1 |
| Cəmi | 26 |

Xaricdə - 15

| | |
|---|---|
| Miqrasiyaya dair axtarış | 6 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 1 |

| | |
|---|---|
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 2 |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 3 |
| Ailə məktubu | 3 |
| Cəmi | 15 |

2014-cü il ərzində bağlı işlər – 35

| | | |
|---|---|---|
| Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı | 7 müsbət | 10 mənfi |
| Miqrasiyaya dair səədlərin axtarışı | 2 müsbət | 4 mənfi |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | - | - |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 1 müsbət | 4 mənfi |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | - | 2 mənfi |
| Əfqanıstanda müharibə zamanı itgin düşənlərin axtarışı | 1 müsbət | 3 mənfi |
| Repressiya zamanı itgin düşənlərin axtarışı | - | 1 mənfi |
| Cəmi | 11 | 24 |